# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyası.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*  *№ 23 (1368), 5 - 11 iyun 2018-ci il*  *Qəzet 2001-ci ildən çıxır.*


# Avropa Atletika Assosiasiyasının rəhbərliyi Bakıda bir sıra görüşlər keçirib



Ölkəmizdə səfərdə olan Avropa Atletika Assosiasiyasının prezidenti Svein Arne Hansen və baş icraçı direktoru Kristian Milz müxtəlif idman obyektlərini ziyarət edib və görüşlər keçiriblər.

Azərbaycan Milli Olimpiya Komitəsindən "Olimpiya dünyası" qəzetinə bildiriblər ki, qonaqlar Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov ilə də görüşüblər. Görüşdə ölkəmizdə idmanın inkişafına dair fikir mübadiləsi aparılıb.

Qonaqlar Bakı Olimpiya Stadionunda olublar. Azərbaycandakı idman qurğuları ilə yaxından tanışlıq zamanı Bakı-2015 birinci Avropa və Bakı-2017 IV İslam Həmrəyliyi oyunlarının atletika yarışlarının bu stadionda keçirildiyi qeyd edilib.

Daha sonra Avropa Atletika Assosiasiyasının nümayəndə heyəti ilə Azərbaycan Atletika Federasiyasında görüş keçirilib. Qonaqlar federasiyanın fəaliyyəti və strukturu ilə yaxından tanış olub, atletikanın gənclər arasında inkişafı yolları müzakirə ediblər.

Qitənin nüfuzlu idman qurumunun təmsilçiləri görüş çərçivəsində üçtəkanla tullanma idmanı üzrə Avropa rekordçusu Nazim Babayev ilə tanış olublar.

Gənclər və idman naziri Azad Rəhimovla görüşdə idman sahəsi üzrə müxtəlif məsələlər müzakirə edilib.

Milli Olimpiya Komitəsində təşkil olunan görüşdə isə Azərbaycanda atletikaya maraq və idmanın bu növünün təbliği, xüsusilə MOK-un bu sahədə gördüyü işlər barədə məlumat verilib. Həmçinin "KIDs Athletics", "Olimpiya Hərəkatı", "LEAP 2017", "Michel Johnson Performance" və digər təbliğedici layihələrin əhəmiyyətindən, son illərdə idmana marağın artmasından danışılıb. Bu layihələrin gənclərin idmana marağının genişləndirilməsi ilə yanaşı, məşqçi, hakim və texniki heyətin bilik və bacarıqlarının artırılmasında mühüm rolu qeyd edilib.

# Bu gün Bakıda BMX üzrə dünya çempionatı start götürəcək

"İyunun 5-dən 9-dək dünyanın diqqəti yenidən Azərbaycana yönələcək. BMX üzrə dünya çempionatının Azərbaycanda keçirilməsi həm ölkəmizin təbliği, həm də idmanın inkişafı baxımından mühüm əhəmiyyət daşıyır".

Bu sözləri Bakıda keçiriləcək velosiped idmanının BMX növü üzrə dünya çempionatı ilə əlaqədar keçirilən mətbuat konfransında Azərbaycan Velosiped İdmanı Federasiyasının (AzVİF) birinci vitse-prezidenti, Avropa Velosipedçilər Birliyinin Rəhbər Komitəsinin üzvü, velosiped idmanının BMX növü üzrə 2018-ci il dünya çempionatının keçirilməsi ilə bağlı yaradılmış İşçi Qrupunun rəhbəri Sahib Ələkbərov deyib.

(ardı 2-ci səhifədə)




# Bədii gimnastlar İspaniyada uğurla çıxış ediblər

İspaniyanın Quadalaxhara şəhərində keçirilən bədii gimnastika üzrə 34-cü Avropa çempionatı Azərbaycan milli komandası üçün uğurla başa çatıb.

Qitə birinciliyində ölkəmizi fərdi proqramda təmsil edən Arzu Cəlilova ümumilikdə, 4 alət üzrə finala vəsiqə qazanmaqla bürünc medala sahib olub. Gənc gimnastımız top ilə hərəkətlərdə daha uğurla çıxış edərək hakimlərdən 17.100 xal alıb. Yalnız Rusiya və Ukrayna gimnastlarına güzəştə gedən Arzu Cəlilova öz karyerasında ən uğurlu nailiyyətinə imza atıb.

Digər gimnastımız Nərminə Səmədova isə halqa ilə hərəkətlərdə 5-ci, gürzlərlə hərəkətlərdə isə 8-ci olub. Lent ilə final mərhələsinə adlayan Yelizaveta Luzan isə yekun nəticədə 6-cı pillədə qərarlaşıb.

Komandamıza növbəti bürünc medalı isə 3 top-2 iplə icra etdikləri kompozisiya ilə hərəkətlərdə qrup komandası qazandırıb. Aliyə Paşayeva, Siyana Vasileva, Zeynəb Hümmətova, Diana Doman və Ayşən Bayramovadan ibarət möhtəşəm beşlik hakimlərdən 20.350 xal almaqla fəxri kürsünün 3-cü pilləsində yer alıblar.

Böyüklər arasında fərdi yarışlarda isə ölkəmizi Zöhrə Ağamirova və Veronika Hudis təmsil edib. Zöhrə Ağamirova 63.200 xal toplayaraq 2019-cu ildə Minskdə keçiriləcək II Avropa Oyunlarına vəsiqəni təmin edib.

# Yeniyetmə güləşçilər Avropa çempionatında yarışırlar

Türkiyənin İstanbul şəhərində güləş üzrə U-23 Avropa çempionatı keçirilir. Yarışda 19-23 yaş arası idmançılar mübarizə aparırlar.

Qitə birinciliyində ilk olaraq yunan-Roma güləşçiləri qüvvələrini sınayıblar. Ölkəmizi bu yarışlarda yığma komandanın baş məşqçisi Şaban Donat və məşqçi Emin Əhmədovun rəhbərliyi altında 7 güləşçi təmsil edir. Baş məşqçi Aslan Ağayevin rəhbərliyi altında çempionatda 3 qadın güləşçimiz mübarizə aparır. Avropa çempionatının son iki günündə sərbəst güləşçilər mübarizəyə başlayacaqlar. Yığma komandanın baş məşqçisi Firdovsi Umudov, böyük məşqçi Zəlimxan Hüseynov və məşqçi Arif Abdullayevin rəhbərliyi altında çempionata 7 idmançı yollanıb. Yarışda görüşlərin idarə edilməsində ölkəmizi beynəlxalq dərəcəli hakim Natiq Hacıyev təmsil edir.



## Anons

*Xorvatiyada Dünya kuboku yarışları təşkil edilib*

*Voleybolçularımız səfərdə Portuqaliya yığmasına qalib gəliblər*

Səh. 2

## Futbol üzrə dünya çempionatına 9 gün qalır





AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU


## "Gənclərimizdə vətənpərvərlik hissi çox yüksəkdir"

Səh. 5

# "Buenos-Ayres-2018"in rəsmi talismanı təqdim olunub

Buenos-Ayresdə keçiriləcək Yeniyetmələrin III Olimpiya Oyunlarının təşkilatçıları bu ilin rəsmi talismanı haqqında məlumat dərc ediblər. Bu dəfə ruhlandırıcı mənbə yaquar #Pandi olub. Pişikkimilər nəslindən olan bu yırtıcının vətəni Argentinanın şimal hissəsidir. Yaquar dünyada ən vəhşi təsvir edilən heyvanlardan biridir.

Buenos-Ayresdə pişik ləpirlərinin izləri hələ rəsmi məlumatdan əvvəl əmələ gəlmişdi. "#Pandi"nin 2018-ci il Yeniyetmələrin III Olimpiya Oyunları ilə əlaqəsini yaquarın baş rolda olduğu qısametrajlı cizgi filmi açdı. Filmdə yaquar ildırım sürəti ilə bütün şəhərdə hərəkət edərək, Oyunların açılış mərasiminin keçiriləcəyi yerə - Obeliskə doğru hərəkət edir.

Yerli təşkilatçılar bəyan edirlər ki, onlar Yeniyetmələrin Olimpiya Oyunlarını #Pandi vasitəsilə gender bərabərliyinə ciddi şəkildə riayət olunacaq ilk oyunlara çevirmək niyyətindədirlər. Onların məqsədi bu Oyunları bəşəriyyət tarixində əlamətdar etməklə, daha yaxşı dünyanın başlanğıcını qoymaqdır.

"Buenos-Ayres-2018" Təşkilat Komitəsinin prezidenti Herardo Verthayn bildirib: "Gənc atletlər Oyunlara bütün güclərini sərf edirlər və Olimpiya ruhu saçan Pandi idmançıları nailiyyətlərə ilhamlandırmaqdan ötrü yaradılıb".




2018-ci il Yeniyetmələrin III Olimpiya Oyunlarının talismanı - hadisələrlə assosiasiya olunan simvoldur və Olimpiya Oyunlarının əsas dəyərlərinin - auditoriya arasında, xüsusən də gənc fanatlar və idmançılar arasında dostluğun, hörmətin və uğurun mənbəyidir.

Şimali Argentinada yaşayan yaquar nəsli kəsilmək təhlükəsindədir. "Buenos-Ayres-2018"in Təşkilat Komitəsi ümid edir ki, bu yırtıcının talisman qismində seçilməsi yaquar nəslinin kəsilməsinin mümkünlüyü barədə insanlarda narahatlığı artacaq.


olimpnews.az - sizin saytınız





## Anons

*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında tədbir keçirilib*

Səh. 3

*"Keşlə" tarixində ilk dəfə ölkə kubokunu qazandı*

Səh. 7

## Velosiped

# Bu gün Bakıda BMX üzrə dünya çempionatı start götürəcək

(əvvəli 1-ci səhifədə)

AzVİF-in birinci vitse-prezidentinin sözlərinə görə, dünya çempionatında 47 ölkədən 1500-dək idmançı iştirak edəcək. Çempionata ev sahibliyinin Azərbaycana həvalə olunması ölkəmizdə yaradılmış mükəmməl idman infrastrukturu və beynəlxalq idman tədbirlərinin təşkili sahəsində qazanılan təcrübə ilə bağlıdır: "2015-ci ildə birinci Avropa Oyunlarında iştirak edən beynəlxalq və Avropa velosipedçilər ittifaqlarının rəhbərləri burada yaradılmış bazanı, ölkə rəhbərinin idmana göstərdiyi diqqət və qayğını gördülər və 2018-ci ildə BMX üzrə dünya çempionatının Bakıda keçirilməsi barədə təşəbbüslə çıxış etdilər. Dövlətimizin başçısı İlham Əliyev bu təşəbbüsü dəstəklədi və bundan sonra hazırlıq işlərinə başlanıldı. 2017-ci il noyabrın 15-də Prezident İlham Əliyev yarışın keçirilməsi ilə bağlı Sərəncam imzaladı və Təşkilat Komitəsi yaradıldı. Baş nazirin birinci müavini Yaqub Eyyubovun rəhbərlik etdiyi komitənin köməyi və dəstəyi ilə artıq çempionata hazırıq".



Sahib Ələkbərov xempionatın keçiriləcəyi Velopark barədə məlumat verib: "Stadionun inşa olunduğu Velopark Bakının üç əsas girişindən biri olan cənub-qərb girişində yerləşir. Əvvəllər bu ərazilərdə daş karxanaları olub. Ümummilli lider Heydər Əliyev ötən əsrin 70-ci illərinin əvvəllərində bu ərazidə park salınması barədə göstəriş verdi. Qanlı göldən buraya su çəkildi, Badamdar tərəfdəki yüksəklikdə böyük su çənləri qoyuldu, oradan da su öz axarı ilə borular vasitəsilə aşağı hissəyə yönləndirilərək suvarma üçün istifadə edildi. Bütün bu işlər dövlət vəsaiti ayrılmadan, iməcilik yolu ilə həyata keçirilirdi. Ulu öndər Heydər Əliyevin özü də bu iməciliklərdə şəxsən iştirak edərək nümunə göstərirdi. Əlli il əvvəl ümummilli liderin əkdiyi şam və zeytun ağacları bu gün də ərazidə qalmaqdadır. Təəssüf ki, ötən əsrin 90-cı illərində bu park baxımsız qaldı, ağaclar suvarılmadığından onların çoxu qurudu. Ərazi ayrı-ayrı şəxslər tərəfindən qanunsuz zəbt olunaraq hasarlandı, burada evlər tikilməyə başlandı. 2005-ci il sentyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əraziyə gələrək buradakı qanunsuz tikililərin ləğv olunması barədə göstəriş verdi və yalnız bundan sonra həmin ərazidəki qanunsuzluqların qarşısı alındı. 2013-cü ildə biz bu ərazinin baza kimi Azərbaycan Velosiped İdmanı Federasiyasına təhkim olunması xahişi ilə dövlətimizin başçısına müraciət etdik və o bizi dəstəklədi. Ötən 5 il ərzində federasiyanın təşkilatçılığı ilə burada gözəl bir Velopark yaradılıb. Velosiped yolları salınıb, parkda 100 mindən çox ağac və gül kolu əkilib, əraziyə su çəkilib, damcı üsulu ilə suvarma və drenaj sistemləri qurulub. Fürsətdən istifadə edərək, bu imkanı yaratmış dövlətimizin başçısına və bu işdə bizə yardımçı olanların hamısına minnətdarlığımı bildirirəm".

AzVİF-in birinci vitse-prezidenti onu da bildirib ki, dünya çempionatına gələn idmançı və nümayəndə heyətləri xərclərini özləri ödəyəcəklər. Azərbaycan isə stadionunun yenidən abadlaşdırılması, yarışın təşkili ilə bağlı çadırların qurulması xərclərini və təşkilata üzvlük haqqını ödəyir.

Sahib Ələkbərov bu günə qədər dünya çempionatına 900-dən çox bilet satıldığını bildirib: "Azarkeşlər biletləri həm internet vasitəsilə, həm də yerində əldə edə bilərlər. Stadionda azarkeşlər üçün 3500 oturacaq quraşdırılıb. 260 sayda beşgünlük biletləri də nəzərə alsaq, artıq bugünədək 2500-dək bilet satılıb".

Mətbuat konfransında iştirak edən dünya çempionatının yarış direktoru Teodor Fişer isə yüksək səviyyəli hazırlıq işlərinə görə Təşkilat Komitəsinə minnətdarlığını bildirib: "Azərbaycan dünya çempionatını yüksək səviyyədə təşkil edir. Bu, həm Azərbaycanın, həm də idmanın təbliğinə müsbət təsir edəcək. Təşkilat Komitəsi çox böyük iş görüb. İyunun 5-də yarış başlayacaq və idmançılar medallar uğrunda mübarizə aparacaqlar. Ayın 6-dan dünya çempionatı birbaşa canlı efirdə yayımlanacaq. İnanıram ki, Bakıda dünyanın ən yaxşı çempionatlarından biri keçiriləcək".

Dünya çempionatında Azərbaycan 8 idmançı ilə təmsil olunacaq. "Challenge" kateqoriyasında yarışacaq velosipedçilərimizdən Xəyal İbrahimov, Soltan İsrafilov və Justinas Pavlovas mübarizəyə iyunun 6-da qoşulacaqlar. İyunun 7-də Orxan Məmmədov, Vüqar Nəsibov, Kənan Babayev və Yelmar Şahmarzadə çıxış edəcəklər. Elit kateqoriyasında yarışacaq Aqşin İsmayılov isə iyunun 8-də start xəttinə çıxacaq.

Xatırladaq ki, 2019-cu ildə BMX üzrə dünya çempionatı Belçikada təşkil ediləcək.

## Gimnastika

# Xorvatiyada Dünya kuboku yarışları təşkil edilib

İdman gimnastikası üzrə Xorvatiyanın Osiyek şəhərində "Challenge" seriyasına aid növbəti Dünya kubokuna yekun vurulub.

Milli komandamızın da təmsil olunduğu yarışda ən yaxşı nəticəni qadın idman gimnastımız Yulia İnşına göstərib. Dayaqlı tullanma hərəkətlərində təsnifat mərhələsindən 7-ci yerlə finala çıxan gimnastımız, yekun nəticədə13.400 xalla 4-cü yerdə qərarlaşıb.

İdman gimnastikası ilə parallel Rusiyanın Yaroslavl şəhərində keçirilən bədii gimnastika üzrə beynəlxalq yarış da başa çatıb. Turnirdə çıxış edən millimizin üzvü Darya Sorokina hər 4 alət üzrə final mərhələsinə adlayıb. Bədii gimnastımız ən yaxşı nəticəsini isə lent ilə göstərərək 5-ci olub.

# Himnimiz Macarıstanda iki dəfə səsləndi

İdman gimnastikası üzrə gənclərdən ibarət milli komandamız Macarıstanın paytaxtı Budapeştdə keçirilən beynəlxalq turnirdən vətənə 8 medalla qayıdıb. 28 may Respublika Gününə təsadüf edən yarışda idmançılarımız Azərbaycanın dövlət himnini iki dəfə səsləndirməyə müvəffəq olublar.

Komandamızın hesabına ən çox medal yazdıranlardan biri Səməd Məmmədli olub. Təmsilçimiz dəstəli at üzərində çıxışlarına görə qızıl, dayaqlı tullanmada gümüş, parallel qollarda isə bürünc medala sahib olub. Daha bir bürünc medalı isə gimnastımız çoxnövçülükdə qazanıb.

Növbəti qızıl medalı isə hesaba Cavidan Babayev halqalarda uğurlu çıxışı ilə yazdırıb.

Digər idmançımız Ramin Dəmirov da öz yaş kateqoriyasında çıxışlarına görə halqalarda gümüş, çoxnövçülükdə isə bürünc medalla mükafatlandırılıb. Ağamurad Qəhrəmanovun turnikdəki çıxışı isə onu fəxri kürsünün ikinci pilləsinə yüksəldib.

## Voleybol

# Voleybolçularımız səfərdə Portuqaliya yığmasına qalib gəliblər



Qadın voleybolçulardan ibarət Azərbaycan millisi Qızıl Avropa Liqasında növbəti qələbəsini qazanıb. Millimiz turnirin V turunda səfərdə Portuqaliya yığmasının qonağı olub.

İspaniyalı baş hakim Xose Luis Arrarte Miranın idarə etdiyi oyunda voleybolçularımız ilk seti 25:20 hesabı ilə öz xeyrinə başa vurublar. İkinci setdə portuqaliyalı voleybolçular hesabı bərabərləşdiriblər - 28:26. Oyunda yüksək əzmkarlıq nümayiş etdirən voleybolçularımız ardıcıl iki setdə 25:11 və 25:15 hesabı ilə qələbə qazanıblar.

Beləliklə, görüş Azərbaycan millisinin 3:1 hesablı üstünlüyü ilə yekunlaşıb.

Qızıl Avropa Liqasında milli komandalar üç qrupda mübarizə aparırlar. "A" qrupunda yer alan Azərbaycan yığmasının rəqibləri Ukrayna, Portuqaliya və Bolqarıstan seçmələridir. Komandamız ilk görüşdə Bakıda Ukrayna yığmasını 3:1, ikinci qarşılaşmada isə Portuqaliya seçməsini eyni hesabla məğlubiyyətə uğradıb. Voleybolçularımız üçüncü turda Bolqarıstan millisinə səfərdə 1:3 hesabı ilə uduzublar. Bakıda keçirilən IV turda isə millimiz Bolqarıstandan üstün olub - 3:1. Liqanın final mərhələsi Macarıstanda keçiriləcək.

Xatırladaq ki, Azərbaycan millisi 2016-cı ildə Qızıl Avropa Liqasının çempionu olub.

## Güləş



# Gənc güləşçimiz Kaspiyskdə bürünc medal qazanıb

Rusiya Federasiyasının Kaspiysk şəhərində Suraqat Asyatilovun xatirəsinə gənclər arasında yunan-Roma güləşi üzrə beynəlxalq turnir keçirilib. Turnirdə Rusiya, Azərbaycan, Belarus, Qazaxıstan və Ermənistan komandaları mübarizə aparıb. Güləşçilərimiz turniri 1 bürünc medalla başa vurublar. Yeganə medalı komandamıza Zaur Nuriyev qazandırıb. 60 kq çəki dərəcəsində mübarizə aparan idmançımız fəxri kürsünün 3-cü pilləsində qərar tutub. Görüşlərin idarə edilməsində ölkəmizi beynəlxalq dərəcəli hakim Bəşir İsazadə təmsil edib.

## Xəbərlər

# Azərbaycan Milli Antidopinq Agentliyinin səlahiyyətləri artırılacaq

Bununla bağlı "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Qanunun "Milli antidopinq qurumunun vəzifələri" adlı 7-ci maddəsinə dəyişiklik təklif edilib.

Nəzərdə tutulan dəyişikliyə görə, sənədə "İdmanda dopinqdən istifadənin qarşısının alınması, habelə qadağan olunmuş dopinq vasitələrinin qanunsuz dövriyyəsində iştirak edən şəxslər barədə məlumat almaq məqsədilə müvafiq icra hakimiyyəti orqanları ilə əməkdaşlıq etmək, o cümlədən məlumat mübadiləsini həyata keçirmək" məzmunlu 7.0.12-1-ci maddə əlavə olunur.

Beləliklə, milli antidopinq qurumuna idmanda dopinqdən istifadənin qarşısının alınması, habelə qadağan olunan dopinq vasitələrinin qanunsuz dövriyyəsində iştirak edən şəxslər barədə məlumat almaq üçün müvafiq icra hakimiyyəti orqanları ilə əməkdaşlıq etmək, o cümlədən məlumat mübadiləsini həyata keçirmək səlahiyyəti verilir.

# Triatlonçularımızın qarşıdakı yarışlara hazırlıq prosesi müzakirə olunub

Azərbaycan Triatlon Federasiyasında (ATF) "BakuTriClub"un üzvləri ilə görüş keçirilib.

Görüşdə Azərbaycan idmançılarının da iştirak edəcəkləri "Ironman" üzrə qarşıdakı yarışlara hazırlıq məsələləri müzakirə olunub. İdmançılarımızdan Firdovsi Kərimov iyunun 17-də Astanada keçiriləcək "Ironman 70.3" turnirində iştirak edəcək. İyulun 8-də isə idmançılarımız Almaniyada təşkil olunacaq "Ironman" üzrə Avropa çempionatında mübarizə aparacaqlar. Firdovsi Kərimov və digər triatlonçumuz Aleksandr Parxomovski Frankfurtda keçiriləcək beynəlxalq turnirdə qüvvələrini sınayacaqlar.

Federasiyanın prezidenti Azər Məhərrəmov idmançılara uğurlar arzulayıb.

Xatırladaq ki, "BakuTriClub" Azərbaycan Triatlon Federasiyasının təşəbbüsü ilə yaradılıb.

## Atçılıq

# Jokeylərin mübarizəsi başladı

***İyunun 2-də Bakıda, Binə Atçılıq Mərkəzindəki hippodromda Azərbaycan Respublikası Atçılıq Federasiyasının (ARAF) təşkilatçılığı, Heydər Əliyev Fondunun dəstəyi ilə Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyi münasibətilə keçirilən Milli Atçılıq Festivalının açılışı olub. Sonra Milli Atçılıq Festivalına Binə Atçılıq Mərkəzində cıdır üzrə "100 İllik Yubiley Kuboku" ilə start verilib.***

Qonaqlar əvvəlcə ölkədə fəaliyyət göstərən atçılıq idman klublarının üzvlərinin iştirakı ilə möhtəşəm paradı izləyiblər.

Üç qaçışdan ibarət olan cıdır yarışında 3 yaşlı Qarabağ, Dilboz və ingilis atlarının 1600 metr məsafədə, 4 yaş və yuxarı Qarabağ və Dilboz atlarının isə 2000 metr məsafədə qrup üzrə hərəkətləri nümayiş olunub.

Yarışın birinci hissəsində jokey Orxanbəy Hacıyev "Taləzar" ləqəbli atla birinci yerə yüksəlib. Jokey Hilal Nəzərov "Zirvə" ləqəbli atla ikinci, jokey Azər Əliyev isə "Xanımqız" ləqəbli atla üçüncü yerə çıxıb.

Üç yaşlı ingilis atlarının yarışında jokey Hilal Nəzərov "Bahr" ləqəbli atla fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Jokeylər Rauf Tahirov "Atilla" ləqəbli atla ikinci, Hilal Nəzərov isə "King of Baku" ləqəbli atla üçüncü olublar. Qaliblər kubok və fəxri fərmanlarla təltif ediliblər.



Digər yarışda isə jokey Rauf Tahirov "Qaradağ" ləqəbli atla birinci yerin və "100 İllik Yubiley Kuboku"nun sahibi olub. Jokeylər Zaur Tahirov "Qalxan" ləqəbli atla ikinci, Hilal Nəzərov "Dağlar" ləqəbli atla üçüncü yerdə qərarlaşıblar.

Cıdır yarışının ümumi mükafat fondu 15 min manatdır.

Qeyd edək ki, festival çərçivəsində iyunun 5-7-də və 9-da çövkən milli atüstü oyunu üzrə "100 İllik Yubiley Kuboku" turniri keçiriləcək. Bu yarışın ümumi mükafat fondu 50 min manat təşkil edir.

İyunun 8-də atçılığın konkur növü üzrə Heydər Əliyev Kuboku turniri təşkil olunacaq. "Elite Horse & Polo Club"un yaşıl arenasında keçiriləcək və iki kateqoriyadan ibarət olacaq turnirin ümumi mükafat fondu 34 min manatdır.

İyunun 15-17-də Azərbaycan, Almaniya, İrlandiya və Hindistanı təmsil edən klubların iştirakı ilə ölkəmizdə arena polo üzrə Dünya kuboku yarışları keçiriləcək. Üç gün davam edəcək turnirdə ümumilikdə altı oyun olacaq. Azərbaycanı bu mötəbər yarışda milli polo komandasının idmançılarından ibarət "Elite Horse & Polo Club"u təmsil edəcək.

# Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında tədbir keçirilib









Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında (AzDBTİA) Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi və AzDBTİA-nın prorektoru, pedaqogika üzrə fəlsəfə doktoru, professor Dilqəm Quliyevin “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyində bədən tərbiyəsi və idmanın inkişafı” (1918-2018) monoqrafiyasının təqdimatı ilə bağlı tədbir keçirilib. Tədbirdə akademiyanın rektoru Fuad Hacıyev, Gənclər və İdman nazirinin müavini İsmayıl İsmayılov, Milli Olimpiya Komitəsinin vitse-prezidenti, Azərbaycan Ədalətli Oyunlar Komissiyasının sədri Xəzər İsayev, kitabın müəllifi Dilqəm Quliyev və idman ictimaiyyətinin nümayəndələri iştirak ediblər. Tədbir Azərbaycan Dövlət himninin səsləndirilməsi ilə başlayıb. Tədbirin aparıcısı Milli Olimpiya Komitəsinin aparıcı məsləhətçisi, “Olimpiya dünyası” qəzetinin baş redaktoru Murad Fərzəliyev qonaqları salamlayaraq Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının böyük bir tarixi hadisə olduğunu azərbaycançılıq məfkurəsinin möhkəmlənməsinə, həmçinin gələcək nəsillərin müstəqil dövlətçilik əsasında tərbiyə olunmasına xidmət göstərdiyini vurğulayaraq bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2018-ci ilin Azərbaycan Respublikasında “Azərbaycan Xalq Cümhuriyyəti ili” elan edilməsi haqqında Sərəncam imzalayıb. Həmin Sərəncama uyğun olaraq ölkəmizdə müxtəlif tədbirlər, yığıncaqlar keçirilir. M.Fərzəliyev dedi: “Bu gün AzDBTİA-da Azərbaycan Xalq Cümhuriyyətinin yubileyi ilə bağlı keçirilən bu tədbirin də tariximizə nəzər salmaq baxımından çox böyük əhəmiyyəti var. Bu tədbir həm də ona görə əhəmiyyətlidir ki, AzDBTİA-nın rektoru Fuad Hacıyevin təşəbbüsü və bu təhsil ocağının elmi şurasının qərarı ilə professor Dilqəm Quliyevin “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyində bədən tərbiyəsi və idmanın inkişafı” adlı monoqrafiyası kitab şəklində çap olunaraq yubiley ərəfəsində ərsəyə gəlib. Ümumiyyətlə, milli dəyərlər olmadan bəşəri dəyərlər mümkün deyil. Xalqın tarixinə və keçmişinə bələd olmadan, onun milli dəyərlərinə yiyələnmədən gələcək haqqında danışmaq çox çətindir. Azərbaycan Xalq Cümhuriyyəti 23 aylıq fəaliyyəti dövründə bu mənəvi dəyərləri birləşdirərək Azərbaycan xalqının dövlətçilik tarixində silinməz izlər qoydu. Azərbaycan xalqının ziyalıları Azərbaycan Xalq Cümhuriyyətini yaratmaqla xalqımızın milli mənəvi dəyərlərini, dövlətçilik yaratmaq baxımından milli mənlik şüurunu yüksəklərə qaldırmaqla, müsəlman aləmində və şərqdə ilk demokratik dövlət qurmaqla bütün dünyaya özünün varlığını bir daha sübut etdi.

1918-ci il may ayının 27-də Zaqafqaziya seymində təmsil olunan Azərbaycan müsəlman fraksiyanın üzvləri fövqəladə iclas çağırıb. Uzun sürən müzakirələrdən sonra Müvəqqəti Milli Şura yaratmaq qərara alınıb. Müvəqqəti Milli Şuranın sədri vəzifəsinə Məhəmməd Əmin Rəsulzadə, İcra Komitəsinin sədri vəzifəsinə isə Fətəli xan Xoyski seçilib. Milli Şura özünün ilk iclasından bir gün sonra 1918-ci il may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını elan etdi və bununla da şərqdə, müsəlman aləmində ilk demokratik respublika yaradıldı. Elə həmin iclasda yeni demokratik dövlətin yaranması faktını hüquqi cəhətdən təsbit edən “Azərbaycanın istiqlaliyyəti haqqında Akt” qəbul edildi. Ümumiyyətlə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması çətin dövrə təsadüf edirdi. Bu dövrdə AXC-nin yaranması, doğurdan da, dünya siyasət aləmində çox böyük addım idi. Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra özünün ilk parlamentini yaratdı. Bilirsiniz ki, Azərbaycan 20-ci əsrdə 3 dəfə dövlət qurub. Bu 3 dövlət quruculuğunun hər birində Azərbaycan xalqı və onun siyasi liderləri yaxından iştirak ediblər. Azərbaycan xalqının ümumilli lideri Heydər Əliyev 1969-cu ildə hakimiyyətə gələrək Azərbaycanın inkişafı və çiçəklənməsi üçün böyük işlər görüb. Azərbaycan xalqı bu gün cənab Prezident İlham Əliyevin ətrafında birləşərək dövlətimizin daha da çiçəklənməsi, dünya dövlətləri arasında həm iqtisadi, həm siyasi, həm mədəni sahədə böyük uğurlar əldə etməsi üçün səy və bacarıqlarını əsirgəmir. Məhz bunun nəticəsidir ki, bu gün Azərbaycanda idman böyük sürətlə inkişaf edir. Sevindirici haldır ki, ölkəmiz dünyanın aparıcı idman dövlətlərindən birinə çevrilib. Bu gün yubiley tədbirində professor, idman ustası, bədən tərbiyəsi və idman xadimi “İdmançı” qəzetinin baş redaktoru, pedaqogika üzrə fəlsəfə doktoru Dilqəm Quliyevin “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyində bədən tərbiyəsi və idmanın inkişafı” (1918-2018) monoqrafiyasının təqdimatının da keçirilməsi təqdirəlayiqdir.

Bu monoqrafiyada ümummilli lider Heydər Əliyevin, Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizdə idmanın inkişafına göstərdiyi diqqət və qayğıdan, eyni zamanda son 100 ildə idmanın və bədən tərbiyəsinin inkişafından, həmçinin idmançılarımızın Avropa, dünya, Olimpiya çempionatlarındakı uğurlarından bəhs edilib. Dilqəm müəllimin bu kitabının işıq üzü görməsində ilk növbədə müəllifə, Akademiyanın rektoru Fuad Hacıyevə, Akademiyanın elmi şurasına minnətdarlığımızı bildiririk”, - deyə Murad Fərzəliyev bildirib.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rektoru Fuad Hacıyev 1918-ci il mayın 28-də əsası qoyulan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının milli tariximizin parlaq səhifələrindən biri olduğunu qeyd edib. “Azərbaycan xalqının və milli dövlətçiliyinin tarixində özünəməxsus yer tutan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin vəzifəni yerinə yetirərək milli tələblərə və demokratik prinsiplərə uyğun dövlət orqanları formalaşdırıb. AXC ölkənin ərazi bütövlüyünün və milli təhlükəsizliyinin təmin edilməsinə, qısa müddətdə yüksək döyüş qabiliyyətli ordunun yaranmasına nail olub.

Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay fəaliyyət göstərməsinə baxmayaraq, həyata keçirilən tədbirlər müstəqil dövlətçiliyimizin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edib. Demokratik hüquq və azadlıqların bərqərar olması, etnik və dini mənsubiyyətdən asılı olmayaraq bütün vətəndaşların bərabər hüquqlarının tanınması, hətta bir çox Avropa ölkələrindən daha əvvəl qadınlara seçki hüququnun verilməsi, Azərbaycan dilinin dövlət dili elan edilməsi, təhsil və mədəniyyətin inkişafına xüsusi diqqət göstərilməsi və sair işlər Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin yürütdüyü siyasətin mahiyyət və mənasını əyani şəkildə səciyyələndirir. 1991-ci ildə isə müstəqil Azərbaycan dövləti yaradılmışdır. Görkəmli dövlət xadimi, müstəqil Azərbaycanın qurucusu Heydər Əliyevin 1993-cü ildə ölkəmizdə siyasi hakimiyyətə qayıdışından sonra dövlət müstəqilliyimiz daha da möhkəmlənmiş, ölkəmizdə demokratik prinsiplər bərqərar edilmiş, güclü ordu yaradılmış, müstəqilliyimiz əbədi və dönməz xarakter almışdır. Biz Azərbaycan Xalq Cümhuriyyətinin varisləri olmağımızla fəxr edirik! Bu gün Dilqəm Quliyevin həm də yeni kitabının təqdimatıdır. Dilqəm müəllim bizim fəxrimizdir. Mən hesab edirəm ki, idman sahəsinin tarixinin araşdırılması yönündə Dilqəm müəllim çox böyük xəzinədir və biz ondan istifadə etməliyik. Bir faktı da qeyd edim ki, bu gün bu akademiyanın məzunları arasında 777 nəfər Olimpiya, dünya, Avropa çempionatlarının qalibləri var. Bu bizim fəxrimizdir. Dünyada elə bir təhsil müəssisəsi tapmaq olmaz ki, ölkəsinin bayrağını 777 dəfə qaldıran tələbəsi olsun”, - deyə Fuad Hacıyev bildirib.

Gənclər və İdman nazirinin müavini İsmayıl İsmayılov Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının dövlətçilik ənənələrimizin bərpasında, dirçəlməsində mühüm hadisə olduğunu bildirib:

“Ümummilli liderimizin müəyyənləşdirdiyi müstəqillik yolu Azərbaycan Xalq Cümhuriyyətinin varisi olan müasir Azərbaycanın dövlətçilik yoludur. Ölkə Prezidenti cənab İlham Əliyev bu yolu uğurla davam etdirərək Azərbaycanı regionun lider dövlətinə, sülhün, sabitliyin və inkişafın təminatçısına çevirib. Bu gün müstəqil Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin siyasi varisi kimi dünya birliyində öz layiqli yerini tutur. Qeyd olunduğu kimi, ölkəmizdə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə bağlı çoxlu tədbirlər keçirilir. Bugünki tədbirdə professor Dilqəm Quliyevin “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyində bədən tərbiyəsi və idmanın inkişafı” (1918-2018) monoqrafiyasının təqdimatı da təqdirəlayiq haldır. Dilqəm müəllimin idman tarixindəki uğurlarımızın xalqımıza çatdırılmasında böyük əməyi var. O, Azərbaycan idman tarixinin ən məhsuldar yazarıdır. Onun idmanla bağlı 100-dən artıq kitabları, məqalələri çap olunub. Dilqəm müəllimi təbrik edir, fəaliyyətində yeni uğurlar arzu edirəm”.

Milli Olimpiya Komitəsinin vitse-prezidenti Xəzər İsayev 1918-ci il mayın 28-də müsəlman Şərqində yaradılan ilk dünyəvi, demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin tarixi əhəmiyyətindən danışıb. O, cümhuriyyətin gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 aylıq fəaliyyəti dövründə qazandığı uğurlardan bəhs edib. Xəzər İsayev Prezident İlham Əliyevin 2017-ci il mayın 16-da imzaladığı “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında” Sərəncamının milli dövlətçilik tariximizə olan xüsusi diqqət və ehtiramın, milli kimliyimizə qayğının bariz nümunəsi olduğunu bildirib. “Dövlətimizin başçısının 2018-ci ili ölkəmizdə “Azərbaycan Xalq Cümhuriyyəti ili” elan etməsi cümhuriyyət dövründə həyata keçirilmiş tədbirlərə yüksək dəyərin təcəssümüdür.

Azərbaycan 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra, xüsusən ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində cümhuriyyət dövrünün tədqiqi və təbliği istiqamətində mühüm addımlar atılıb. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması xalqımızın milli azadlıq mübarizəsinin məntiqi yekunu idi. Azərbaycan bayrağını zirvələrə qaldıran hər bir idmançı Azərbaycanımızın dəyərini və bayrağımızın dəyərini daha yaxşı anlayır. Bu gün təkcə idman sahəsində deyil, digər sahələrdə də Azərbaycan bayrağı yüksəklərdə dalğalanır”, - deyə Xəzər İsayev bildirib.

Tədbirdə idman ustası, pedaqogika üzrə fəlsəfə doktoru, Əməkdar məşqçi, “İdmançı” qəzetinin baş redaktoru, “Tərəqqi” medalına layiq görülmüş, Azərbaycan Milli Ensiklopediyasının bədən tərbiyəsi və idman bölməsi məqalələrinin müəllifi, “Əməkdar bədən tərbiyəsi və idman xadimi”, professor Dilqəm Quliyev çıxış edərək, “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyində bədən tərbiyəsi və idmanın inkişafı” (1918-2018) elmi-tədqiqat kitabının ərsəyə gəlməsində əməyi olan hər kəsə minnətdarlığını bildirib:

“Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2018-ci ilin “Azərbaycan Xalq Cümhuriyyəti ili” elan edilməsi ilə bağlı imzaladığı Sərəncam monoqrafiyanın yaranmasına səbəb oldu. Monoqrafiyanın işıq üzü görməsində mənə maddi və mənəvi köməklik göstərdiyi üçün AzDBTİA-nın rektoru Fuad Hacıyevə minnətdarlığımı bildirirəm”

Qeyd edək ki, elmi-tədqiqat əsəri Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik dövrünü əhatə edir. Kitabda 1 əsr ərzində Olimpiya Oyunları, dünya və Avropa çempionları, eləcə də, tanınmış idmançıların çıxışlarının təhlili, onların yüksək nailiyyətləri necə gərgin idman mübarizə nəticəsində qazandıqları, bu zirvəyə çatmağın hansı zəhmət hesabına başa gəldiyi tarixi faktlarla geniş təhlil edilib. Fəsillərdə ayrı-ayrı dövrlərdə həyata keçirilən tədbirlər, müxtəlif illərə aid fotomateriallar da yer alması kitabın maraqlı olmasında mühüm rol oynayıb.

Təqdim edilən elmi-tədqiqat əsəri Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin əməkdaşları, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının professor-müəllim heyəti, tələbələri və geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

*Əliyə İlyasova*

Bizim müsahibə

***Bu gün dünyada ən çox idmançı kütləsinə malik olan idman növlərindən biri də güləşdir. Bizim eradan əvvəl Yunanıstanda keçirilən Qədim Olimpiya oyunlarından dövrümüzə qədər olimpiadaların hər birində güləş üzrə yarışlar keçirilib. Bu idman növünün miqyası qısa zaman ərzində genişlənib. Tezliklə müxtəlif qitələrdə güləşin xüsusiyyətlərini özündə əks etdirən növlər yaranmağa başlayıb. Belə ki, Yaponiyada “sumo”, “puroresu”, Monqolustanda “monqol güləşi”, ABŞ-da “peşəkar”, Hindistanda “pehlvani”, Meksikada “luça libre” və s. geniş vüsət alıb.***



# İbrahim Öztək: “Azərbaycan Qafqazın parlayan ulduzudur”



## “İstəyirik ki, nə vaxtsa aba güləşi Olimpiya oyunlarının proqramına daxil edilsin”

Qədim tarixə malik olan Azərbaycanda isə “Zorxana” adı altında güləş formalaşmağa başlayıb. Bu barədə əvvəlki saylarımızda ətraflı məlumat vermişik. Güləşin ən çox yayıldığı ölkələrdən biri də Türkiyədir. Böyük tarixi dövr yaşayan bu ərazidə güləş yarışları keçirilmiş, bu növ yerli əhali tərəfindən sevilmişdir. Nəticədə, indiki Türkiyə ərazisində “yağlı”, “qaraqucaq” və “aba” güləşi inkişaf edərək, günümüzə qədər gəlib çıxıb. Qədim türklərin məşğul olduğu güləş növləri arasında aba güləşi daha çox sevilir. Bu barədə məlumatları araşdırdıqda, bir sıra maraqlı məqamlar üzə çıxdı. Aba güləşi barəsində daha dolğun məlumatı isə biz beynəlxalq federasiyanın prezidentindən aldıq. Belə ki, Türkiyə Olimpiya dərnəyinin rəhbəri, Dünya Aba Güləşi Federasiyasının prezidenti, professor İbrahim Öztək bugunlərdə ölkəmizdə olmuş, idman sahəsində fəaliyyyət göstərən rəsmilərlə görüşmüşdür. Hər zaman səhifələrində idmanın bütün növlərinə geniş yer ayıran “Olimpiya dünyası” qəzetinin əməkdaşı federasiya prezidenti ilə görüşərək, onun rəhbərilk etdiyi federasiyanın fəaliyyətindən, bu növün tarixindən bəhs edən yazı hazırlayıb. İbrahim Öztək bizi maraqlandıran suallara ətraflı cavab verib.



***- İbrahim bəy, ölkəmizə xoş gəlmisiniz. Səfərinizin məqsədi barədə məlumat verərdiniz .***

- Təşəkkür edirəm. Əvvəlcə bildirim ki, Azərbaycanda olduğum üçün çox xoşbəxtəm. Burada özümü öz evimdəki kimi hiss edirəm. Səfərim zamanı Bakını gəzdim. Gözəl, tarixi və müasirliyi ilə könülləri sevindirən şəhərdə olmaqdan çox məmnunam. Paytaxtınızı gəzdikdən sonra idman rəsmiləri, Milli Olimpiya Komitəsinin nümayəndələri, idmançılarla yaxından tanış olub, onlarla fikir mübadiləsi apardıq. Onu da xüsusi qeyd edim ki, səfərim Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə təsadüf etdi. Bu gözəl günlərdə sizinlə birlikdə bayram əhval ruhiyyəsində olmaqdan qürur duyuram.

***- İdmançı kimi bir sıra uğurlarınız olub. Əsas uğurlarınız cüdoda olub.***

- Uzun illərdən bəri idman sahəsində yorulmaz fəaliyyət göstərmişəm. Cüdo, aykido, karate, uşu və kunq-fu kimi idman növləri ilə məşğul olmuşam. Cüdo üzrə Balkan çempionuyam. Qitə miqyaslı yarışlarda mükafatalayiq nəticələrim olub. Hazırda Türkiyə Olimpiya Dərnəyinin prezidenti vəzifəsindəyəm.

***- Dünya Aba Güləşi Federasiyasının prezidenti kimi məsul vəzifədə də çalışırsınız. Bir qədər idman növünün tarixi barəsində məlumat verərdiniz.***

- Aba güləşinin böyük tarixi var. Bu idman növü iskit, saxa, uyğur, qaraxan, moğol, özbək, Qazax, Cağatay və digər xalqlar arasında geniş yayılıb. Türkiyə ərazisində yaşayan Qaziantəp, Antakya bölgələrində yaşayan Qızıq türkləri də bu növə maraq göstəriblər. Orta Asiyada da bu növ qısa zaman ərzində öz miqyasını genişləndirib. Hazırda bütün dünyada sevilən idman növü olan cüdo, necə deyərlər mənşəyinə görə aba güləşinin müasirləşmiş formasıdır.

***- Bu növ üzrə beynəlxalq yarışlar keçirilirmi? Hansı ölkələrdə daha geniş yayılıb?***

- Türkiyənin Hatay, Kahramanmaraş, Qazıantəp vilayətlərində sevilən aba güləşi artıq Türkiyənin sərhədlərini aşa bilib. Təxminən 60-a qədər ölkədə bu növlə məşğul olurlar. Elə bu məqsədlə ötən il aba güləşi üzrə dünya çempionatı keçirdik. Monqolustandan Almaniyaya, Əfqanıstandan Sibirə qədər 40-dan artıq ölkənin idmançıları mübarizə apardılar. Biz çalışırıq ki, həmin ölkələrdə bu idman növünü təbliğ edək. Bunun üçün orada yerli mütəxəssislər yetişdirək. Vaxtaşırı olaraq seminarlar keçirib, onlara sertifikatlar təqdim edirik. Qeyd edim ki, Avropa ölkələri arasında Almaniyada aba güləşi daha çox nüfuza malikdir. Təkcə bu ölkədə 4 dəfə ölkə çempionatı təşkil edilib. Bundan başqa Rumıniyada da yarışlar keçirilib. Düşünürük ki, qısa zaman ərzində aba güləşinin miqyası bütün dünyada geniş yayılacaq.

***- Qeyd etdiniz ki, Hatay aba güləşinin yarandığı yer sayılır. Yəqin ki, yarışlar elə bu vilayətdə keçirilir.***

- Bəli. Ötən il Hatayda keçirilən yarış yüksək səviyyədə təşkil olunmuşdu. Qaliblərə təşkilatçılar tərəfindən mükafat olaraq “Cümhuriyyət qızılı” təqdim etdik. Bununla yanaşı onların yarış dövrü ərzində bütün xərcləri bizim tərəfdən həll edilmişdi. Qeyd edim ki, qalibə verilən mükafat bir gəncin və ya bir tələbənin illik xərcini qarşılaya biləcək bir səviyyədədir. Bu işi ənənə halına salmağı düşünürük.

***- Güləşin bu növü hansı xüsusiyyətlərə malikdir?***

- Aba güləşi ilk baxışdan çox çətin görünür. Amma tədricən bu sirlərə yiyələnmək mümkündür. Qaydaya əsasən, güləşçilər fəndləri əsasən ayaqüstə yerinə yetirirlər. Çalışıb, fürsət düşən kimi rəqibin kürəyini yerə vurmalısan. Dirsəkləri yerə toxunan idmançı mübarizəni məğlubiyyətlə başa vurur. Kəmərdən tutmaq sərbəstdir. Ayaqlardan tutmaq sərbəstdir. Bu növdə bütün komandalar türkcə adlandırılıb: salam, başla, bitdi, cəza vs.

***- Necə düşünürsüz, aba güləşi Olimpiya Oyunlarının proqramına salına bilərmi?***

- Hədəfimiz çox böyükdür. Biz istəyirik ki, yaxın gələcəkdə bütün dünyada aba güləşi üzrə yarışlar təşkil olunsun. Hamı bü növlə yaxından maraqlansın. Təbliğat nəticəsində yeni uğurlara nail olaq. İstəyirik ki, nə vaxtsa aba güləşi Olimpiya oyunlarının proqramına daxil edilsin. Bu arzudur. Arzunun həyata keçməsi üçünsə mütərəqqi işlər görülməlidir.

***- Bu idman növünün Azərbaycanda yayılması üçün nə etmək lazımdır?***

- Azərbaycan bütün dünyada idman ölkəsi kimi tanınır. İdmançılarınızın uğurları saysız-hesabsızdır. Bu bizi də sevindirir. Hər zaman müxtəlif miqyaslı idman tədbirlərində, xüsusilə Olimpiya oyunlarında Azərbaycan idmançılarının uğurlarına şərik olmuşuq. Azərbaycanda idmanın əksər növləri inkişaf edib. Burada idmançılar üçün hər bir şərait yaradılıb. Əminliklə deyə bilərəm ki, Azərbaycan Qafqazın parlayan ulduzudur. Ölkə rəhbərliyinin idmana göstərdiyi diqqət və qayğı yüksək səviyyədədir. Əgər bir idmançının sosial vəziyyəti yaxışdırsa, onun uğur qazanmaq üçün imkanları daha çox olur. Biz istərdik ki, aba güləşi Azərbaycan da geniş yayılsın. Bunun üçün bu idman növünə maraq olmalıdır. Hesab edirik ki, burada bu növü təbliğ edə bilsək, yaxın gələcəkdə Azərbaycan idmançıları bu növ üzrə beynəlxalq yarışlarda iştirak edəcəklər.

***Anar Əhmədov***

# *Avropa kuboku yarışlarında 8 medal sevinci*

Portuqaliyanın Koimbra şəhərində yeniyetmə cüdoçular arasında Avropa kuboku yarışları keçirilib. 28 ölkədən 416 yeniyetmə cüdoçunun (241 oğlan, 175 qız) mübarizə apardığı Avropa kuboku turnirində Azərbaycan millisi 15 idmançı (10 oğlan, 5 qız) ilə təmsil olunub. Beynəlxalq turnirdə uğurla çıxış edən cüdoçularımız 8 medal qazanıblar.



Millimizin üzvləri Zaməddin Poladov (60 kq), Vüqar Talıbov (66 kq) və Toğrul Salmanov (90 kq-dan yuxarı) bütün rəqiblərinə qalib gələrək qızıl medal əldə ediblər. Yalnız finalda uduzan Şükran Zamanlı (50 kq) gümüş medalla kifayətlənib. Mətin Rzazadə (60 kq), Aytac Qardaşxanlı (48 kq), Kamran Novruzov (73 kq), İbrahim Ağakişiyev (81 kq) isə bürünc medal qazanıblar.

Beləliklə, Azərbaycan cüdoçuları Portuqaliyada 3 qızıl, 1 gümüş və 4 bürünc medala layiq görülüblər.

*    *    *

“Sərhədçi” İdman Olimpiya Mərkəzində 23 yaşınadək cüdoçular arasında keçirilən açıq Bakı birinciliyinə yekun vurulub.

Yarışın sonuncu günündə oğlanlar arasında 5 çəki dərəcəsində mükafatçılar məlum olub. Sənan Əhmədov (73 kq), Samir Ağayev (81 kq), Əkbər Quliyev (90 kq), İmran Yusifov (100 kq) və Cəfər Əkbərli (100 kq-dan yuxarı) qızıl medal qazanıblar.

Qalib və mükafatçılara Azərbaycan Cüdo Federasiyası, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin diplom və medalları verilib.

Qeyd edək ki, bu yaş kateqoriyası üzrə Azərbaycan birinciliyi iyunun 12-13-də keçiriləcək.

# Gürcüstanın açıq çempionatından 1 gümüş, 1 bürünc medal

Mayın 20-dən 23-dək Tbilisi şəhərində idman dırmanması üzrə Gürcüstanın açıq çempionatı keçirilib. Azərbaycan yığma komandası bu yarışda 5 idmançı ilə təmsil olunub. Yeniyetmələr arasında çətinlik növü üzrə keçirilən yarışlarda məşqçi Çingiz Tağızadənin rəhbərliyi altında Dövlət Gömrük Komitəsi İdman Sağlamlıq Mərkəzinin “Gömrükçü” İdman Klubunun 2 idmançısı qüvvəsini sınayıb. 2008-2009-cu illər təvəllüdlü idmançılar arasında qüvvəsini sınayan Tükəzban Məmmədli gümüş, Ayan Əliyeva isə bürünc medal qazanıb. Qeyd edək ki, yarışda Azərbaycan və Gürcüstan dırmanıcıları ilə yanaşı, İran komandasından ümumilikdə 41 idmançı mübarizə aparıb.



Qeyd edək ki, bu nəticə Azərbaycan komandasının yeniyetmə yaş qrupu üzrə ilk beynəlxalq uğurudur.

# Yığma komandanın heyəti ilə görüş

Azərbaycan Milli Karate Federasiyasının (AMKF) prezidenti Yaşar Bəşirov və baş katib Mirhəsən Seyidov kata üzrə milli komandanın heyəti ilə görüşüb.

Ötən həftə millimizin Serbiyada 53-cü Avropa çempionatında kataçıların fərdi yarışında qazandığı bürünc medalı, komanda çıxışında isə beşinci yeri tutmasını yüksək dəyərləndirən federasiya rəhbərliyi onlara yeni uğurlar arzulayıb.

Yaşar Bəşirov Roman Heydərovun fərdi kata yarışlarında daha təcrübəli rəqiblərlə mübarizədə üç il ardıcıl qazandığı bürünc medalı özünəməxsus bir rekord kimi dəyərləndirib. Mirhəsən Seyidov karatenin bu növünün respublikada daha da inkişafı üçün məqsədyönlü tədbirlər görülməyə başlandığını və bu işlərin gücləndiriləcəyini qeyd edib.

Görüşdə, həmçinin idmançıların problemləri müzakirə olunub, məhsuldar çalışmaları üçün onlara müvafiq tövsiyələr verilib. Rəsmilər bildiriblər ki, nəticələrdə müsbət dəyişiklik etmək məqsədilə seminar keçmək üçün xaricdən tanınmış mütəxəssislər dəvət olunacaq.

Tədbirdə mövzulardan biri isə fiziki qüsurlu idmançıların karate ilə məşğul olmasına cəlb edilməsi və təcrübəsi olan əlil idmançıların rəsmi yarışlara hazırlanması olub. Məşqçilər heyətinə bu sahədə iş planının hazırlanması tapşırığı verilib.

Kata üzrə milli komandanın baş məşqçisi Vahid Ayvazov, böyük məşqçi Vüqar Kərimov, məşqçi Anar Əhmədov və komandanın kapitanı İsmayıl Quliyev diqqət və qayğıya görə federasiya rəhbərliyinə, eləcə də dəstək göstərən təşkilatlara minnətdarlığını bildirib.

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU**

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

# "Gənclərimizdə vətənpərvərlik hissi çox yüksəkdir"

***Bugünlərdə xalqımız Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) 100 illik yubileyini qeyd etdi. Yubileylə bağlı dövlət səviyyəsində bir sıra tədbirlər həyata keçirildi. Həmin ərəfədə Azərbaycan idmançılarının güləş üzrə hərbçilərin dünya çempionatından vətənə 11 medalla qayıtmaları bu yubileyə sanki bir töhfə oldu. Ölkəmizi bu yarışda Mərkəzi Ordu İdman Klubunun (MOİK) komandası təmsil edirdi.***

***"Olimpiya dünyası" qəzeti olaraq bu qələbə münasibəti ilə MOİK-in rəisi, polkovnik-leytenant Rəsad Quliyevlə görüşüb söhbət etməyi qərara aldıq. Rəşad müəllim bizə komandanın fəaliyyətindən, uğurlarından, görüləcək işlərdən danışdı.***



***- Rəşad müəllim, MOİK komandası buyaxınlarda güləş üzrə hərbçilərin 33-cü dünya çempionatından vətənə qələbə ilə qayıtdı. Təəssüratlarınızı öyrənmək istərdik.***

- Komandamızın Moskva şəhərindən vətənə medallarla qayıtması bizi hədsiz sevindirdi. Bu, ordumuz, xalqımız, idmanımız üçün gözəl qələbə idi. Hərbçilərin güləş üzrə 33-cü dünya çempionatı mayın 14-19-da Rusiyanın paytaxtında keçirilirdi. Yarışlarda dünyanın 22 ölkəsindən 350-dən çox idmançı iştirak edirdi. İdmançıların əksəriyyəti Olimpiya, dünya və Avropa çempionatlarının mükafatçıları idi. Təmsilçilərimiz onlara bəslənilən ümidləri doğruldaraq, dünya çempionatını 11 (2 qızıl, 3 gümüş və 6 bürünc) medalla başa vurdular. Komandamız bu göstərici üzrə çempionatda iştirak edən 22 ölkə arasında üçüncü yeri tutdu və kubokla mükafatlandırıldı.

***- Yarışlarda MOİK-in neçə idmançısı iştirak edirdi?***

- MOİK komandasını çempionatda ümumilikdə, 21 idmançı təmsil edirdi. Onlardan 9-u sərbəst güləş, 9-u yunan-Roma, 3-ü isə qadın güləşi yarışlarında mübarizə aparırdı. İdmançılarımızdan ikisi - Həsən Əliyev (77 kq) və Ceyla Nağızadə (65 kq) qızıl medala layiq görüldülər. Gümüş medalları komandamıza Kənan Əliyev (86 kq), Murad Məmmədov (60 kq), Ülvi Qənizadə (72 kq) qazandırdılar. Sona Tumarxanova (50 kq), Ağahüseyn Mustafayev (65 kq), Coşqun Əzimov (74 kq), Roman Bəkirov (97 kq), Rafiq Hüseynov (82 kq) və İslam Abbasov (87 kq) isə yarışları bürünc medalla başa vurdular. Komandadan çox razıyam və uğurlarımızı bundan sonra da davam etdirəcəyik.

***- Əldə olunan nəticə onu deməyə əsas verir ki, yarışlara çox ciddi hazirlaşmısınız?***

- Komandamız dünya çempionatına çox məsuliyyətlə hazırlaşırdı. Yarışların Rusiyanın paytaxtı Moskvada keçirilməsi mübarizənin gərgin və maraqlı keçəcəyindən xəbər verirdi. Biz də hazırlıq prosesində bunu nəzərə almışdıq. Görülən işlərin nəticəsi isə göz qabağındadır.

Rusiyada qazandığımız qələbə həqiqətən, idmançılarımızın və məşqçilərimizin yarışlara məsuliyyətlə, ciddi yanaşmalarının bariz nümunəsidir. Daha böyük qələbələr qazanaraq üçrəngli bayrağımızı ucaltmaq və bəslənilən etimadı doğrultmaq üçün hər zaman inamla mübarizə aparacağıq.

***- Dünya çempionatı, həm də Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə təsadüf edirdi.***

- Yarışların Azərbaycan Xalq Cümhuriyyətinin və Azərbaycan Ordusunun yaradılmasının 100 illik yubileyi ərəfəsinə təsadüf etməsi güləşçilərimizi qələbəyə daha da həvəsləndirdi, onlara stimul verdi. İdmançılarımızın bu qələbəsi yubiley ərəfəsində bir bayram hədiyyəsi idi.

***- Hakim ədalətsizliyi barədə nə deyə bilərsiniz?***

- Hər bir yarışda olduğu kimi biz də dünya çempionatında hakim haqsızlığı ilə qarşı-qarşıya qaldıq. Dörd idmançımıza finalda təzyiq göstərildi, hansı ki, onların rəqibləri Rusiya təmsilçiləri idi. Lakin, buna baxmayaraq MOİK-in güləşçiləri əsil əzmkarlıq göstərərək yarışları uğurla başa vurdular.

## MOİK zəngin tarixi ənənələri olan klublardandır

***- Necə düşünürsünüz, MOİK-in təmsilçilərinin uğur və nailiyyətlərinin əsasında nə dayanır?***

- Hər bir sahədə uğur qazanmaq üçün şərait, diqqət və qayğı olmalıdır. Təbii ki, komandamızın əldə etdiyi uğurun əsasında Azərbaycanın Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin idmana göstərdiyi yüksək diqqət və qayğı dayanır. Xüsusi vurğulamaq istərdim ki, məhz bu qayğının nəticəsində respublikamızın idman həyatında baş verən böyük dəyişikliklər MOİK-in fəaliyyətinə də öz müsbət təsirini göstərir. İdmançı zabit və əsgərlərimiz mötəbər yarışlarda fəal iştirak edərək qələbələr qazanır, respublikamızın idman şöhrətini şərəflə qoruyurlar. Komandamızın qələbəsi nəticəsində Azərbaycanın bayrağının ucalması, himnimizin səslənməsi qürurvericidir.

Ölkə rəhbərinin diqqət və qayğısı, Müdafiə Nazirliyinin səmərəli fəaliyyəti nəticəsində Azərbaycan Silahlı Qüvvələri dünyanın ən qabaqcıl orduları ilə eyni cərgədə durur. Hərbi idmançılarımız da ordumuzun dünya miqyasında layiqli yerdə olduğunu əldə etdikləri qələbələr və qazandıqları medallarla daim sübut edirlər.

***- MOİK respublikada zəngin tarixi ənənələri olan klublardan biridir. Klubun fəaliyyəti ilə bağlı nə deyə bilərsiniz?***

-Mərkəzi Ordu İdman Klubu 1961-ci ildə yaradılıb və hazırda burada 17 idman növü üzrə məşqlər keçirilir. Zabit və əsgərlərimizin boks, cüdo, güləş, taekvondo, üzgüçülük, əlbəyaxa döyüş növlərinə marağı daha çoxdur. Qeyd edim ki, üzgüçülük üzrə bir neçə komandamız fəaliyyət göstərir.

Hərbi xidmətə çağırılan və idman sahəsində yüksək nəticələri olan idmançı gənclər vətənə xidmətlə yanaşı, idman karyeralarını MOİK-də yüksək səviyyədə davam etdirərək beynəlxalq yarışlarda ölkəmizi təmsil etmək imkanı əldə edirlər. Azərbaycan milli komandasının əksər üzvləri MOİK-in təmsilçiləridir. Olimpiya Oyunlarında, dünya, Avropa çempionatlarında və digər yarışlarda qazanılan qələbələrin bir hissəsi ordu idmançılarının payına düşür. 2017-ci ildə Bakıda keçirilən IV İslam Həmrəyliyi Oyunlarında birinci yeri tutan Azərbaycan yığmasının qələbəsində MOİK-in yetirmələrinin də payı vardır. Belə ki, medallardan 4-nü ( 2 qızıl, 1 gümüş və 1 bürünc) məhz hərbi idmançılar qazanıblar. MOİK-in yetirmələri 6 dəfə Ümumdünya Hərbi İdman Oyunlarında və hər il keçirilən idman növləri üzrə dünya çempionatlarında uğurla çıxış edərək indiyədək ümumilikdə, 154 (35 qızıl, 45 gümüş və 64 bürünc) medal qazanıblar.

MOİK 1995-ci ildən Beynəlxalq Hərbi İdman Şurasının (CISM) fəal üzvlərindəndir. CISM çərçivəsində hərbçilərin 2004-cü ildə cüdo üzrə 30-cu, 2006-cı ildə güləş üzrə 24-cü və 2008-ci ildə boks üzrə 52-ci dünya çempionatlarına respublikamız ev sahibliyi edib. MOİK-in ən böyük uğurlarından biri də 2013-cü ildə hərbçi idmançılar arasında ilk dəfə keçirilən futbol üzrə dünya kuboku yarışının Azərbaycanda təşkil edilməsidir. CISM-in Avropa konfransı da bizim ölkədə keçirilib.

2015-ci ildə CISM-in xətti ilə Koreya Respublikasında keçirilən 6-cı Ümumdünya Hərbi İdman Oyunlarında 120 ölkədən 8100 nəfər idmançı ilə yanaşı, Azərbaycan Ordusu 5 idman növü üzrə 30 idmançı ilə təmsil olunub.

***- Necə düşünürsünüz, torpaqlarımızın 20 fazinin işğal altında olduğu bir vaxtda qazanılan hər bir uğur bizim üçün çox əhəmiyyətlidir?***

- Moskvaya yola düşməzdən əvvəl Bakı hava limanında idmançılarla söhbətimiz oldu. Onlara dedim: "Biz burdan həm də xalqımızın elçisi kimi gedirik və vətənə alnıaçıq, üzüağ, şərəflə qayıtmalıyıq". Hərbçi idmançılarımıza Azərbaycanı Moskvada şərəflə, layiqincə təmsil etdikləri üçün minnətdaram.

İdman sağlamlıqdan əlavə, həm də böyük təsiredici gücə, qüvvəyə malikdir. İdman, həm də dövlətlərin, ölkələrin güc nümayişidir. Düşünürəm ki, bu güc nümayişində ölkəmiz qabaqcıl sıralarda yer alır. Sevindirici haldır ki, Azərbaycan dünyada özünü bir idman ölkəsi kimi tanıtmağa müvəffəq olub. Elə idman növləri vardır ki, xalqımızın qanına, canına hopub. Məsələn, götürək elə güləşi. Azərbaycan pəhləvanları ta qədimdən qələbələri ilə daim bizi sevindiriblər.

## "Bizim çox güclü, qüdrətli ordumuz vardır"

***- Qarşıdan Azərbaycan Silahlı Qüvvələrinin yubileyi gəlir.***

- 26 iyun -Azərbaycan Silahlı Qüvvələrinin 100-cü ildönümü ölkəmizdə yüksək səviyyədə qeyd olunacaq. Azərbaycan Şərqdə ilklərə imza atan bir xalqdır. Şərqdə ilk teatr, ilk opera, ilk cümhuriyyət, qadınlara seçki hüququ verilməsi məhz Azərbaycanda baş verib. Yaxın tarixdə ilk dəfə keçirilən Avropa Oyunlarına da ölkəmiz ev sahibliyi edib. İnanıram ki, xalqımız, respublikamız ilklər yazmaqda davam edəcək.

Bizim çox güclü, qüdrətli ordumuz vardır və bütün dünya bunu yubiley münasibəti ilə keçiriləcək hərbi paradda görəcək. Bizim şanlı tariximiz vardır. Səfəvilər dövləti Şərqdə ən qüdrətli dövlətlərdən biri olub və Azərbaycan bu dövlərin bir parçası kimi tarixdə şanlı səhifələr yazmağı bacarıb. 1918-ci ildə Azərbyacan Xalq Cümhuriyyətinin yaranması da tarixi bir zərurət idi. Cümhuriyyət fədailəri 23 ay ömrü olan AXC-nin varlığını şanlı tarixə çevirdilər. Ümummilli lider, müdrik siyasətçi Heydər Əliyev əsası 1918-ci ildə qoyulan Azərbaycan dövlətçiliyinin ənənələrini davam etdirəcək müstəqil Azərbaycanın qurucusu oldu. Hər bir azərbaycanlının borcudur ki, bu dövlətçiliyin, müstəqilliyimizin qorunmasında vətənə xidmət etsin, öz borcunu versin.

***- Gənclərimizin dövlət və ordu quruculuğunda rolu nədən ibarətdir?***

Azərbaycan gəncliyi çox inkişaf edib. Gənclər hər bir sahədə - dövlət və ordu quruculuğunda, idman, diplomatiya sahəsində fəal iştirak edirlər. Gənclərimizdə vətənvərvərlik hissi çox yüksəkdir, onlar adət-ənənələrimizə hörmət edir, milli, mənəvi dəyərlər ruhunda tərbiyə olunurlar. Milli, mənəvi dəyərlərimiz, tariximiz, adət-ənənələrimiz gənclərə aşılanmalıdır. Nəsildən, kökdən gələn ənənələri qoruyub saxlayaraq, gələcək nəsillərə ötürsək, bizə heç bir zaval gəlməz.

***- Xalqımızın həddən artıq qonaqpərvər olması bəzən başına bəladır...***

- Sizə bir hadisəni danışım. Bakıda hansısa beynəlxalq tədbir keçirilirdi. Ev sahibi kimi bura gələn xarici qonaqların hər sözünü canla-başla yerinə yetirirdim. Türkiyə nümayəndə heyətinin üzvlərindən biri mənə qayıtdı ki: "Rəşad bəy, bu qədər özünüzü yormayın. Siz onların ölkəsinə qonaq gedərkən bu qonaqpərvərliyin əvəzini görməyəndə mütəəssir olacaqsınız". Düzü, bu söz məni tutdu. Həqiqətən, elədiyin hörmətin, yaxşılığın əvəzində etibarsızlıq, xəyanət görəndə özünə yer tapmırsan. Necə ki, ermənilərin bizim xalqa qarşı etdikləri kimi. Dinc yanaşı yaşamaq, dostluq, etibar, mərdlik bir türk kimi bizim qanımızda, canımızdadır. İllərdir qonşu olduğumuz ermənilərdən isə həmişə bunun əksini görmüşük. Tanrı bizə elə məkrli, iblis, şərəfsiz bir düşməni qonşu edib ki, bəlasından qurtula bilmirik. Biz torpaqlarımızın işğalı ilə barışmayacağaıq. Tezliklə Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan Ordusu xalqımıza zəfər sevincini yaşadacaq. Gün gələcək, onlar bizə yalvaracaqlar, bizdən aman diləyəcəklər. Ermənistan istər hərbi, istər də iqtisadi sahədə Azərbaycandan dəfələrlə geri qalır. Hey göz qabağındadır.

## "Fiziki hazırlığı olmayan əsgərin döyüş qabiliyyəti yüksək ola bilməz"

***- Sizi orduya, idmana gətirən nə olub?***

- 1978-ci il sentyabrın 9-da Füzulidə anadan olmuşam. Atam Quliyev Bakir Əliqulu oğlu Qarabağ döyüşlərində şəhid olub, ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunub. Atası ilə fəxr edən bir oğul kimi mən də həmişə vətənimə, xalqıma şərəflə xidmət etmək istəmişəm. Peşəkar şəkildə universal döyüş növləri ilə məşğul olmuşam. Ölkə səviyyəli müxtəlif yarışlarda iştirak edərək, müəyyən nəticələr əldə etmişəm. Orta məktəbi bitirəndən sonra bir qarabağlı, müharibənin dəhşətini görən bir insan kimi ali təhsilimi hərbi sahədə davam etdirməyə qərar verdim. 1995-ci ildə Heydər Əliyev adına Ali Hərbi Məktəbə qəbul oldum. Ali məktəbi bitirdikdən sonra harda çalışdımsa, idmanı bir an buraxmadım. O, mənə stimul verən qüvvə kimi hər zaman mənimlə oldu. 2004-cü ildən MOİK-də müxtəlif vəzifələrdə çalışmışam. 3 ildən artıqdır ki, MOİK-in idman rəisi kimi fəaliyyət göstərirəm. Rəhbərliyin etimadını hər zaman doğrultmağa çalışıram.

***- İdmanın faydası nədir?***

- İdman hər bir insan üçün vacib və mütləqdir. İdman genofondun qorunmasında, gənc nəslin sağlamlığında mühüm rol oynayır. İdman, ordu üçün xüsusilə, əhəmiyyətlidir, hətta deyərdim ki, bir nömrəli vacib məsələdir. Çünki fiziki hazırlığı olmayan əsgərin döyüş qabiliyyəti yüksək ola bilməz. Bunu illərin təcrübəsi deyir. İstər Olimpiya, istər qeyri-Olimpiya idman növü olsun, fərqi yoxdur, orduda xidmət edən əsgər üçün idmanla məşğul olmaq mühüm amildir. Uşaqları kişik yaşlarından idmana cəlb etmək lazımdır. İlk növbədə onları gimnastika və üzgüçülüyə yönəltmək məqsəduyğundur. Bu zaman həmin uşağın bünövrəsi də sağlam olacaq, gələcəyi də.

Gəncliyində idman, bədən tərbiyəsi ilə məşğul olan insanlar ahıl vaxtlarında başqaları ilə müqayisədə daha qıvraq görünürlər. Bir dəfə evin yanındakı aptekdən dərman alırdım. Bir cavan oğlan aptekçiyə baş ağrısından, yorğunluqdan şikayətlənirdi. Ona bütün bunlardan qurtulmaq üçün idmanla məşğul olmasını məsləhət görəndə səhərdən-axşama kimi ayaqüstə olduğunu, hərəkətsiz qalmadığını dedi. Həmin adam düşünürdü ki, səhər yerindən durub işə getmək və evə qayıtmaq idmandır. İnsan səhər yerindən durub qaçmalı, hərəkət etməli, tərləməlidir. Cəmi 1 ay idmanla məşğul olduqdan sonra bəhrəsini görürsən, yorğunluqdan, stressdən əsər-əlamət qalmır. İdman, həm də insanı dözümlü, iradəli, sərbəst edir, özünəgüvəni formalaşdırır.



## Tariximizi bilmək hər birimizin borcudur

***- Özünüz necə, idmanla məşğul olursunuz?***

- İdmansız nəfəs ala bilmirəm. Bu, sanki məndə bir tələbata çevrilib. Təsəvvür edin ki, 10 gün məşq etməyəndə əks-nəticəsini o dəqiqə hiss edirəm. Həftədə 3 dəfə futbol oynayır və trenajorla məşğul oluram.

***- Ən böyük arzunuz?***

- Hər bir azərbaycanlının ən böyük arzusu vətən torpaqlarının işğaldan azad edilməsini görməkdir. Ən böyük arzum azğın düşmənə öz yerini göstərmək, torpaq uğrunda canından keçən şəhidlərimizin qanının yerdə qalmamısını görməkdir. Hər birimiz vətənə xidmət edirik. Bu vətən mənim, sənin, onun yəni hamımızındır. Hər kəs vətən üçün, onun azadlığı, müstəqillyi üçün müsəlləh əsgər olmalıdır.

***- Gərgin iş günündən sonra yorğunluğu necə aradan qaldırırsınız?***

- Məni sakitləşdirən, özümə qaytaran idman və kitablardır. Hər axşam 5-6 vərəq də olsa, mütaliə edirəm. Tarixi romanları daha çox xoşlayıram. Səfəvi dövləti, Osmanlı imperiyası ilə bağlı kitabları həvəslə oxuyuram.

***- Stolunuzun üstündə kitab görürəm.***

- Hazırda Vaqif Səmədoğlunun "Gürzəçöl yazıları" kitabını mütaliə edirəm.

***- Tarixi niyə bu qədər çox sevirsiniz?***

- Tarixini, keçmişini bilməsən, gələcəyini qura bilməzsən. İnsan gələcəyi qurmaq üçün tarixdən dərs almalıdır. Tarixi bilməliyik ki, keçmişdə edilən səhvləri təkrar etməyək.

***- Müasir gənclərin əksəriyyəti mütaliədən daha çox mobil telefonlara, sosial şəbəkələrə vaxt ayırırlar...***

- İnkişaf, texnologiya öz yerində, amma kitab oxumaq hər bir cəmiyyətdə, hər bir dövrdə mövcud olub və olacaq. Mütaliə mədəniyyətdir, bilikdir, informasiyadır. Avropa ölkələrində gənc insanlar metroda, avtobusda kitab, qəzet oxuyurlar. Məgər, onların telefonu yoxdur ki?! Gözümü açıb evdə atamı həmişə mütaliə edən görmüşəm. Sadə insan idi, heç bir vəzifədə işləmirdi. Amma o qədər savadlı, bilikli idi ki. Hərdən bacılarımla fikirləşirdik ki, atam kitabları stolun üstünə elə-belə yığıb, yəqin oxumur (gülür). Amma sonra boyüdükcə atamın çox savadlı, geniş dünyagörüşünə malik insan olduğunu gördük. Bu da məhz kitabların sayəsində idi. Evdə, ailədə gözünü açıb kitab görən uşaq mütləq mütaliəyə həvəs göstərəcək.

***- Övladlarınızı necə tərbiyə edirsiniz?***

- Dörd qız övladım var. Mentalitetimizə uyğun olaraq mühafizəkar atayam. 24 yaşında ailə qurmuşam. Böyük qızım 7-ci sinifdə oxuyur. Balaca qızımın 2 yaşı var. Nə qədər yorulsam da, axşam evə gedəndə onların varlığı mənə ilham verir.

***- Xoşladığınız film, teatr tamaşası?***

- Daha çox tarixi filmləri xoşlayıram. "Cəngəvər" "Cəsur ürək" filmləri ən çox sevdiklərimdir. Azərbaycan kinolarından "Nəsimi", "Babək" filmlərinə, teatr tamaşalarından "Fatehlərin divanı"na baxıram.

***- Sevdiyiniz mahnı?***

- Tünzalə Ağayevanın igid qəhrəman Mübariz İbrahimov haqqındakı "Şəhidim" mahnısına həyəcansız qulaq asa bilmirəm.

***- Xoşladığınız aktyor?***

- Xalq artisti Rasim Balayevə böyük hörmətim var. Orta məktəbdə oxuyanda müəllimlərimin çoxu məni hörmətli aktyorumuza bənzədirdilər. Bu da məni çox sevindirirdi.

***- Hansı janrda müsiqiyə qulaq asırsınız?***

- Gözəl musiqini sevirəm, muğam, estrada, opera fərqi yoxdur. İslam Rzayev, Qədir Rüstəmov, Alim Qasımov, Şövkət Ələkbərova, Səxavət Məmmədov sevdiyim sənətkarlardır. Vaxtım olanda Opera və Balet Teatrında "Leyli və Məcnun"a tamaşa edirəm. Müxtəlif janrlarda müsiqi dinlədikcə insanın zövqü də formalaşır. Bayağı musiqi insanın zövqünü korladığı kimi, gözəl, ecazkar ifa insanın ruhunu oxşayır, gözəlləşdirir.

***Səadət Hakıyeva***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

## İdmançı sənət, sənətçi idman haqqında

*“Olimpiya dünyası” qəzetinin “İdmançı sənətçi, sənətçi haqqında” rubrikasının budəfəki qonaqları tanınmış aktyor, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dosenti, respublikanın Əməkdar artisti, “Qızıl qılınc” mükafatı laureatı Ağalar Bayramov və futbol veteranı, “Şöhrət” ordenli, Futbol üzrə İxtisaslaşdırılmış Uşaq-Gənclər Olimpiya Ehtiyatları Məktəbinin direktoru Kazbek Tuayevdir.*

# Ağalar Bayramov:

# “Mədəniyyət və idman qoşa qanad kimidir”



***- Ağalar müəllim, Azərbaycan tamaşaçısının və dinləyicisinin ürəyində yeri olan sənətkarlardan birisiniz. Bu məhəbbətin sirri nədədir?***

- Azərbaycan teatr sənətinin bədii qiraət ustalarından biriyəm. Xoşbəxtəm ki, Azərbaycanın bədii qiraət sənətində mənim də adım, imzam var. Ölkəmizdə bu sənətin daşıyıcılarını barmaqla saymaq mümkündür. Bədii qiraət çətin sahədir. Burada insandan aktyorluq, gözəl səs diapazonu tələb olunur. Bu sənətin əsasını Kazım Ziya, Müxlis Cənizadə qoyublar. Bu insanlar aktyor olsalar da, əsasən bədii qiraət ustası kimi tanınıblar. Sonra bu sənətdə böyük ustadım Mikayıl Mirzə, Həsən Əbluç, İlham Əsgərov, Əminə Yusifqızının adlarını çəkə bilərəm.

Bədii qiraət ustası kimi tez-tez dövlət əhəmiyyətli tədbirlərdə iştirak edirəm, cəbhə bölgələrində oluram. Cümhüriyyətimizin 100 illik yubileyi ilə bağlı müxtəlif tədbirlərdə həvəslə, can-başla iştirak etmişəm. Bir sözlə, Allah-təalanın mənə bəxş etdiyi bu səslə bir Azərbaycan vətəndaşı kimi xalqıma, dövətimə xidmət edirəm. Cəmi 23 ay yaşayan cümhuriyyətimiz olmasaydı, biz ikinci dəfə müstəqillik sevincini yaşaya bilməzdik. Hər birimiz xoşbəxtik ki, suveren respublikada yaşayırıq.

### “Valideynlərimi erkən itirmişəm”

***- Uşaqlığnız çox ağır keçib?***

- (Kədərlənir). Uşaqlıq illərim çox ağır keçib. Valideynlərimi erkən itirmişəm, tək, yetim böyümüşəm. Nənəm saxlayıb məni. 1954-cü il yanvarın 16-da Ucar rayonunun Boyat kəndində anadan olmuşam. Dolanmaq üçün orta məktəbdə oxuya-oxuya kəndin qoyun-quzusunu otarmışam. Nənəmin adı Mələksima idi. Nobata gedəndə nənəm kitab-dəftərimi çantama yığırdı ki, bala, sənin heç kimin yoxdur. Oxu ki, bir tərəfə çıxasan. Beləliklə, orta məktəbi kənddə çobanlıq etməklə, əla qiymətlərlə başa vurmuşam. Ali təhsil almaq üçün nənəmi tək qoyub Bakıya gedə bilmirdim. Əsgərlikdən qayıtdıqdan cəmi bir ay sonra nənəm rəhmətə getdi. Nənəmin vəfatından 6 ay sonra Bakıya gəldim.

***- Bakıya gəlməkdə məqsədiniz ali təhsil almaq idi?***

-Şəhərdə fəhləlik edib özümə çörəkpulu qazanırdım. Sonra Bakı Dövlət Universitetinin filologiya fakültəsinə sənədlərimi versəm də, qəbul ola bilmədim. 3 imtahandan keçsəm də, tarixdən kəsildim. Sonra Bakı Mədəni-Maarif Texnikumunda özfəaliyyət dram rəhbəri ixtisasına yiyələndim. Təsəvvür edin, ucqar kənddən gələn yetim oğlan texnikumu pulsuz-parasız fərqlənmə diplomu ilə bitirdi. Yaxşı insanlar hər yerdə var, o vaxt mənə müəllimim Aydın Xəlilov çox dəstək oldu. Ali təhsilimi 1980-1985-ci illərdə almışam.

***-Təhsil aldığınız ali məktəb həm də sizin iş yeriniz oldu?***

-Mən qəbul olanda Mədəniyyət və İncəsənət İnstitutuna yeni rektor təyin olunmuşdu - Aslan Aslanov. Allah ona rəhmət eləsin, çox qayğıkeş, gözəl insan idi. Mən burada da yetimliyi hiss etmədim. Hər zaman bu insanın bir rəhbər, böyük kimi qayğısını, dəstəyini gördüm. 1984-cü ildə Aslan Aslanovun təşəbbüsü ilə Tədris teatrında aktyor kimi fəaliyyətə başladım, halbuki institutu qurtarmağıma hələ 1 il qalırdı.

1985-ci ildə institutun “Aktyor sənəti” kafedrasında baş laborant, bir müddət sonra dekan müavini kimi çalışmışam. 1991-ci ildən bu günə kimi Aərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin “Səhnə danışığı” kafedrasının dosenti kimi tələbələrə “Səhnə danışığı” fənnini tədris edirəm. 1983-cü ildən indiyədək Azərbaycan Dövlət Teleradio şirkətində bədii qiraətçi-aktyor kimi çalışıram.

Fürsətdən istifadə edərək, “Olimpiya dünyası” qəzeti vasitəsilə universitetin sabiq rektoru, sənətşünaslıq üzrə elmlər doktoru, Əməkdar incəsənət xadimi Fərəh Əliyevaya minətdarlığımı bildirirəm. Fərəh xanım burada cəmi dörd il (2014-2018) işləsə də, böyük işlər gördü. Məhz onun dövründə universitetimizin binası əsaslı təmir olundu, səliqə-sahman yaradıldı.

***- Başqa ali məktəbi qurtarsaydınız, yenə bədii qiraətçi olardınızmı?***

- Sənət eşqi elədir ki, harada olursa olsun, özünü göstərir. Rus yazıçısı A.P.Çexov həkim, qırğız Çingiz Aytmatov zootexnik, gözəl şairimiz, yaradıcılığından bəhrələndiyim Məmməd Araz geoloq olub. Lakin yazdıqları, yaratdıqları göz qabağındadır.

### “Mənə 100 il ömür arzulamayın...”

***- İlk dediyiniz şeir yadınızdadır?***

- İlk dəfə Rüstəm Behrudinin “Vətən” şeirini səsləndirmişəm. Mənim yaradıcılığımda ümumiyyətlə, vətən mövzusu geniş



yer tutur. Çünki vətənimi, Azərbaycanımı çox sevirəm. Əsasən, Aşıq Ələsgər, Rəsul Rza, Fikrət Qoca, Məmməd Araz, Musa Yaqub, Ramiz Rövşən, Zəlimxan Yaqubun yaradıcılığına müraciət edirəm. Əjdər Olun şeirlərini çox bəyənirəm.

***- Sizin haqqınızda məqalə və şeir yazanlar az deyil?***

- Tofiq Hacıyev, Məmməd Aslan, Zəlimxan Yaqub, Vasif Məmmədəliyev, Qənirə Paşayeva, Əjdər Ol yaradıcılığımla bağlı məqalə, Musa Yaqub, Vahid Əziz, Eldar İsmayıl və başqaları şeir yazıblar. Sağ olsunlar, qiymətləndirdikləri üçün hər birinə minnətdaram.

***- “Mənə 100 il ömür arzulamayın” şeiri sizə nə deyir?***

- Bu şeirin müəllifi hörmətli şairimiz Vahid Əzizdir. Təxminən 8-9 il bundan əvvəl dostumla Vahid Əzizin yanına getmişdik. Vahid müəllim Bakı kəndlərindəki sanatoriyaların birində dincəlirdi. Söhbət əsnasında iki gün əvvəl yazdığı həmin bu şeiri oxudu. Düzü, şeir məni tutdu. Şeir yaxşı olanda, ifa da gözəl və bənzərsiz olur. Ad günlərində insanlar biri-birilərinə 100 il arzu eləyirlər. Biz kimik ki, 70-80 və ya 100 il arzu edək? Məmməd Araz demişkən, “bir kibrit ömrü istəyirəm”. Tanrı hər kəsə sağlam ömür versin, bu dünyadan köçəndə də incimədən, incitmədən gedək...

### “Sənətim qədər sevdiyim ikinci sahə futboldur”

***- İdmana münasibətiniz?***

- Sənətim qədər sevdiyim ikinci sahə futboldur. Sözün həqiqi mənasında əsil futbolun fanatıyam. Çempionlar Liqasının oyunlarını həvəslə izləyirəm. 2002-ci ildə Türkiyənin “Qalatasaray” klubu “Arsenal”ı (İngiltərə) məğlub edərək Avropa kubokunu qazananda uçmağa qanadım yox idi. Yaponiyada keçirilən dünya çempionatında Türkiyənin 3-cü yer tutması da mənim üçün yaddan çıxmayan, xoş xatirədir. Sovet dönəmində “Dinamo” (Kiyev) və “Bavariya” (Münhen) klublarına, Almaniya millisinə azarkeşlik edirdim. Müstəqillik dövründə isə Türkiyə yığması və “Qalatasaray” klubuna azarkeşlik edirəm. Futbol sonu bilinməyən tamaşadır. Uşaqlıqda yaxşı top qovmağım var idi. Futboldan başqa, voleybola da böyük marağım var. Ölkəmizdə idmana böyük diqqət və qayğı göstərilir. İdmançılarımız yarışlarda Azərbaycanın bayrağını qaldırır, himnimizi səsləndirirlər. Bu, ölkəmizin dünya miqyasında tanınmasında böyük rol oynayır.

İdman sərhəd tanımır. Bəzən ölkələri onların futbol klubları, komandaları və idmançıları ilə tanıyırlar. Mən deyərdim ki, mədəniyyət və idman ölkəni dünyada tanıdan qoşa qanad kimidir. Alim Qasımov esazkar səsi ilə dünyanı dolaşaraq Azərbaycanı təbliğ edir, tanıdır.

***-”Qarabağ”ın ÇL-da oynaması böyük uğur deyildimi?***

- Qurban Qurbanov istedadı, peşəkarlığı və qətiyyəti ilə komandanı bu yerə gətirib çıxara bildi. Bu, futbol tariximizdə bir ilk idi. Mən bu insanın qəlbindəki vətən sevgisini görürəm. “Qarabağ” ÇL-də nəhənglərin qabağında duruş gətirə bildisə, bununla fəxr etmək lazımdır. Futbol idmanın gözüdür və onu hissiz, duyğusuz oynamaq mümkün deyil. 1966-cı ildə Bakının “Neftçi” komandası SSRİ-də 3-cü yeri tutdu. Bu qələbə sevincini bizə bəxş edən Anatoli Banişevski, Kazbek Tuayev və başqaları ilə fəxr edirdik.

***-Tanınmış idmançılardan kimləri tanıyırsınız?***

- Olimpiya çempionları Fərid Mansurov, Elnur Məmmədli, Namiq Abdullayevə böyük hörmətim var.

***- Hansı mükafatlarınız vardır?***

- 2002-ci il dekabrın 24-də ümummilli lider Heydər Əliyevin Sərəncamı ilə Əməkdar artist adına layiq görülmüşəm. Bunun üçün nə fəaliyyət göstərdiyim ali təhsil ocağından, nə də ki, Mədəniyyət və Turizm Nazirliyindən təqdimat olmayıb. Mənimlə eyni vaxtda ad alanlar sonralar xalq artisti oldular, amma mənə qismət olmadı. Bir faktı deyim ki, 2013-cü ildə Mədəniyyət və İncəsənət Universitetinin 90 illik yubileyi ərəfəsində o vaxtkı rəhbərlik il yarım işləyən müəllimənin adını təqdimata saldığı halda, 1984-cü ildən (29 il) burada işləyən Ağalar Bayramovu kənarda qoydu. Bu, mənə qarşı haqsızlıq idi. 6 ay bundan əvvəl Yazıçılar Birliyindən Mədəniyyət və Turizm Nazirliyinə verilən təqdimat da cavabsız qaldı. Məni düzgün başa düşün, mükafat üçün çalışmıram. Amma “istedad etinasızlıqdan sönər”, deyirlər. Bu, laqeydlik məni bir yaradıcı insan, bir vətəndaş kimi çox incidir. 64 yaşım var, bu gün varıq, sabah yox... Nə isə, ürəyimə salmıram. Əsas ad, titul deyil, əsas odur ki, ürəklərdə yer tutasan və səni sevsinlər.

*Səadət Hakıyeva*

# Kazbek Tuayev:

# “Peşəkar olmayan insan heç bir sahədə uğur qazana bilməz”



***- Kazbek müəllim, bir futbolçu kimi ətrafınızda da futbolçular toplaşıblar. Bəs, digər sahələrin nümayəndələri ilə yaxın münasibətiniz varmı? Götürək, elə incəsənət sahəsindəki tanınmış insanları. Onların arasında dost seçmisinizmi?***

- Hər zaman incəsənət nümayəndələrinə böyük pərəstiş etmişəm. Onların arasında yaxından dostluq etdiyim, sənətinə böyük rəğbət bəslədiyim insanlar az olmayıb. Ən yaxın dostlarımdan biri Fərhad Bədəlbəylidir. Onu məncə, geniş təqdim etməyə ehtiyac yoxdur. O, görkəmli musiqişünas, istedadlı piaonçudur. Pianodan söz düşmüşkən, mən Tunisdə məşqçi kimi işləyəndə o, həmin ölkəyə gəlmişdi. Fürsət tapıb, görüşdük. Qərib ölkədə öz həmyerlinlə görüşməyin nə olduğunu təsəvvür edə bilməzsiniz. Bizim komandanın bazasında o, kiçik bir konsert verdi. Dünya və Azərbaycan musiqisindən seçmələri ifa edərək yerli publikanı ələ almağı bacardı. Fərhad futbolu da çox sevir. Futbol onun ən zəif nöqtələrindən biridir. Özü də qeyd edirdi ki, vaxtilə “Neftçi”nin oyunlarını stadiondan izləyib.

***- Təkcə Fərhad Bədəlbəyli ilə dostluq etmisiniz?***

- Bizim onunla söhbətimiz daha maraqlı və əhatəli alınırdı. Fərhad Bədəlbəylidən başqa yaxından münasibət saxladığım bir insan da var idi ki, o da müğənni Oqtay Ağayev idi. Onun ifa etdiyi mahnıları hamı sevirdi, bu gün də sevir. Deməк olar ki, o vaxtı tez-tez görüşürdük. Birgə məclislərdə iştirak edirdik. O, doğrudan da, istedadlı və gözəl xarakterə malik bir insan idi. Hesab edirəm ki, onun səsinin tayı-bərabəri yoxdur.

***- Yəqin ki, musiqi zövqünüz təkcə Oqtay Ağayevin mahnıları ilə əhatə olunmayıb?***

- Əlbəttə, belə deyil. Rəşid Behbudov, Müslüm Maqomayev, İlhamə Quliyeva, “Qaya” qrupunun mahnılarını çox sevirəm. Bu müğənnilər həqiqətən dövrün ən gözəl sənətçiləri idilər. İllər keçəcək, amma belə sənətçilərdən bir daha olmayacaq. Hazırda oxuyanlardan isə opera müğənnisi Dilarə Əliyevanın səsini bəyənirəm.

***- Musiqi barəsində bu qədər. Bəs, kinofilmlər? Azərbaycan filmlərindən hansılarına baxmısınız?***

- Bir neçə film var ki, baxmışam, lakin adlarını xatırlamıram. Amma kinorejissorlardan Eldar Quliyevə böyük hörmətim var. Yaxın dostlarımdan biridir. Hesab edirəm ki, o, dövrünün ən güclü kinorejissorlarından biridir. Bir daha qeyd edim ki, filmlərin adlarını xatırlaya bilmirəm. Amma bildiyimə görə onun çəkdiyi bir neçə film var ki, onlar bu gün Azərbaycan filmlərinin incilərindən sayılır. Eldar Quliyevin çəkdiyi “Babək” filmi kütləvi səhnələrin miqyasına görə heç də xaricdə istehsal olunan bu tipli filmlərdən geri qalmır. Eldar Quliyevin çəkdiyi filmlərin bir neçəsi kinofestivallarda mükafatlara layiq görülüb - red).

***- Sonuncu dəfə hansı kitabı oxumusunuz?***

- (fikirləşir) Yazıçılardan Məmməd Səid Ordubadinin kitablarını oxumuşam. Bilmirəm, nədənsə bu yazıçının qələmə aldığı əsərlər məndə çox böyük maraq oyadıb. Süleyman Rəhimovun da “Şamo” romanını oxumuşam. Romanda maraqlı hadislər baş verir. Eşitmişəm ki, Süleyman Rəhimovun romanındakı qəhrəmanın adı yeni dünyaya gəlmiş oğlunun adı ilə bağlı olub.

***- Bəşir Səfəroğlunun iştirakı ilə “Neftçi”nin tarixi qələbəsindən bəhs edən “Bizə bir xal lazımdır” tamaşasına baxmısınız?***

- “Bizə bir xal lazımdır” kinokomediyası çox gözəl alınıb, desəm yanılmaram. Aktyorlar da rollarını çox məharətlə ifa ediblər. Mən çox şadam ki, bu cür tamaşalarla xalqımıza bizim uğurlarımız barədə məlumatlar çatdırılır. Belə səhnə əsərlərimiz idmanın təbliğində böyük rol oynayır.

***- İncəsənət sizin üçün nə deməkdir? Bu istedadadır, yoxsa tələb?***

- Gözəl sualdır. İncəsənət mənim üçün fövqəl-bəşər bir hissdir. Təbii ki, peşəkar olmayan insan heç vaxt nə incəsənətdə, nə də başqa bir sahədə uğur qazana bilməz. Məncə, hər bir insan öz sevdiyi peşə ilə məşğul olarsa, daha çox uğur qazana bilər. Qaldı ki, sualınızın ikinci tərfinə, istetad Tanrı vergisidir. O, hər kəsə nəsib olmur. Çünki burada istənilən fəaliyyət sahəsində insanın göstərdiyi yüksək bacarıq, məharət nəzərdə tutulur. Bacarığı olmayan insanın isə uğur qazanması o qədər də inandırıcı görünmür.

***- Kazbek müəllim, boş vaxtlarınızı necə keçirirsiniz. Hərdən elə olur ki, futbol və idman insanı hər şeydən təcrid edir. Amma hər şey futboldan ibarət deyil.***

- Futbol mənim həyat tərzimdir. Mən yalnız futbolla istirahət edirəm. İllərdir ki, ömrümü bu idman növünə bağlamışam. Futbol məni heç vaxt yormayıb. Futboldan başqa idmanın güləş növünə marağım var. Olimpiya Oyunlarında və digər mötəbər yarışlarda güləşçilərimizin çıxışlarını izləyirəm.



*Azər Əlizadə*

# FUTBOL

Mayın 28-də Azərbaycan kubokunun final matçı keçirilib. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubiley gününə təsadüf edən finalda "Keşlə" və "Qəbələ" klubları münasibətlərinə aydınlıq gətiriblər. Oyunun taleyini bir qol həll edib. Yeganə qolu vuran "Keşlə" ilk dəfə olaraq kuboku muzeyinə aparıb.

## Azərbaycan kuboku

***Final***

**"Keşlə" - "Qəbələ" - 1:0**

**Qol:** Pərdis Fərcad-Azad, 71.

**"Keşlə":** 1. Kamran Ağayev (k), 2. Sərtan Taşkın, 3. Denis Silva, 4. Slavik Alxasov, 7. Vaqif Cavadov, 10. Sezar Meza Kolli (88. Məmməd Quliyev, 85), 14. Andre Klennon (9. Pərdis Fərcan-Azad, 65), 27. Adrian Skarlatake, 33. Tərlan Quliyev, 40. Nemanya Stoyanoviç (39. Əlibəy Məmmədli, 90+4), 90. Ebrima Sohna.

**"Qəbələ":** 22. Dmitri Bezotosnı, 3. Vojislav Stankoviç (19. Filip Ozobiç, 76), 5. Rasim Ramaldanov, 8. Qismət Alıyev, 9. Baqali Dabo, 14. Cavid Hüseynov (k), 15. Vitali Vernidub (11. Asif Məmmədov, 85), 18. İlqar Qurbanov, 28. Stiven Monroz, 33. Təmkin Xəlilzadə, 45. Famussa Kone.

**Qırmızı vərəqə:** İlqar Qurbanov, 88.

**Hakimlər:** Rauf Cabbarov, Nahid Əliyev, Knyaz Əmiraslanov, Əliyar Ağayev.

***28 may. Qəbələ. Şəhər stadionu. 4500 tamaşaçı.***

# "Keşlə" tarixində ilk dəfə ölkə kubokunu qazandı

## *Bakılılar növbəti mövsüm Avropa Liqasında mübarizə aparacaqlar*



### Uğursuz finalçılar

Mövsümün son oyunu Qəbələ şəhər stadionunda keçirilib. Bu arena 2-ci dəfə finala ev sahibliyi edib. İndiyədək kubokun finallarında qalib olmayan tərəflərdən biri bu dəfə uğursuz seriyaya son qoyacaqdı. Bunadək 4 dəfə həlledici qarşılaşmada oynayan "Keşlə" titul qazanmaq niyyətində idi. Tarixində heç bir böyük titulu olmayan "Qəbələ" isə doğma meydanda qələbəyə sevinmək istəyirdi. İki dəfə finalda uduzan "qırmızı-qaralar" ötən il bacarmadıqlarını bu il gerçəkləşdirməyə köklənmişdi.

Finalların uğursuzlarının matçı ukraynalı mütəxəssislərin qarşılaşması ilə də əlamətdar idi. Qışdan "Keşlə"nin baş məşqçisi olan Yuri Maksimov, özündən 3 il əvvəl Azərbaycana gələn Roman Qriqorçukla növbəti dəfə üz-üzə gəlib. Premyer Liqada iki dəfə heç-heçə edən ukraynalılar bu dəfə mütləq qalibi müəyyənləşdirməli idilər. Çünki kubok əlavə vaxt, hətta penaltilərlə olsa da, sahibini tapacaqdı. Bu kubokun dəyəri həm də Avropa Liqasına bərabər ola bilərdi. Bu, yalnız "Keşlə"yə aid idi. Bakılılar Avropa Liqasına yollanmaq üçün mütləq titul əldə etməli idilər.

"Qəbələ" isə artıq avrokuboklara vəsiqəni təmin etmişdi. Roman Qriqorçukun yetirmələri qalib gəlsəydi, "Keşlə"nin Avropa Liqasına yolunu bağlayacaqdı. Belə olan halda qitənin ikinci dərəcəli klub turnirindəki son təmsilçimiz "Zirə" olacaqdı.

### 25-ci final, 8-ci qalib

Bayram ab-havasında stadion üçrəngli bayrağımızla bəzədilmişdi. Meydana toplaşan hər bir azarkeş bayrağımızı dalğalandırmaqla bayrama daha da rəng qatırdı. Oyundan əvvəl azarkeşlər rumınıyalı müğənni Seeyanın konsertinə baxıblar. Ölkə kuboku meydana gətiriləndən sonra futbolçular meydana çıxıblar. Matç "Qəbələ" klubunun hücumları ilə başlayıb. Amma bakılıların müdafiədə etibarlı oyunu rəqibin hesabı açmasına mane olub. İlk hissədə hesab açılmayıb. Fasilədən sonra "Keşlə" klubu hücumda fəallaşıb. Bunun nəticəsi olaraq qonaqlar gözlənilmədən hesabı açıblar. Oyunun 71-ci dəqiqəsində Vaqif Cavadovun əla ötürməsindən sonra Pərdis Fərcad-Azad topu qapıdan keçirib - 1:0. Qoldan sonra qəbələlilər hücuma atılsalar da, bu, heç nəyi dəyişməyib. Nəticədə, rəqibinə 1:0 hesablı qalib gələn "Keşlə" tarixində ilk dəfə ölkə kubokuna sahib olub. Paytaxt təmsilçisi həm də növbəti mövsüm Avropa Liqasında mübarizə aparmağa haqqı qazanıb.

Yeri gəlmişkən, "Keşlə" - "Qəbələ" oyunu Azərbaycan futbolu tarixinə 25-ci kubok finalı kimi düşüb. İndiyədək 24 dəfə kubokun həlledici matçı keçirilib. "Neftçi" və "Qarabağ" hamıdan çox - hərəyə 6 dəfə yarışın qalibi olub. "Kəpəz" 4, "Xəzər Lənkəran" və "Bakı"nın hesabında 3 mükafat var. Kubok qazanmış digər iki komanda isə hərəyə 1 dəfə uğur əldə edib. Bunlar "Şəfa" və "İnşaatçı" komandalarıdır.

Qəbələ şəhər stadionunda üz-üzə gələn klublardan heç biri indiyədək kuboka yiyələnmədiyindən mükafatın yeni - 8-ci sahibi müəyyənləşib.

### Yuri Maksimovun Azərbaycanda ilk titulu

"Keşlə"nin baş məşqçisi Yuri Maksimov Azərbaycanda ilk titulunu qazanıb. 50 yaşlı mütəxəssis paytaxt klubu ilə ölkə kubokunu əldə edib. Bu, ukraynalının məşqçi karyerasında ilk kubok və 2-ci tituludur. O, 2013/14-cü illər mövsümündə "Mordoviya" ilə Rusiyanın I divizionunda çempionluq yaşayıb.

Ümumilikdə isə Yuri Maksimov karyerasında 3-cü ölkə kubokuna yiyələnib. 1995/96-cı illər mövsümündə Kiyev "Dinamo"su ilə Ukrayna, 1998/99-cu illər mövsümündə "Verder"lə Almaniya kubokuna sahib çıxan keçmiş futbolçu 19 ildən sonra məşqçi kimi bu uğura sevinib.

"Keşlə"nin çalışdırıcısı bununla da Azərbaycan futbolunun müstəqillik tarixinə böyük titul sahibi olan 20-ci məşqçi kimi düşüb. Böyük titul kimi Azərbaycan çempionu, kuboku, Superkuboku, həmçinin "Birlik kuboku" sayılır. I divizion, əvəzedicilər və digər kiçik nüfuzlu turnirlərdə qazanılan titullar nəzərə alınmır. İndiyədək ölkəmizdə 19 baş məşqçi ən yüksək mükafat qazanmışdı. Yalnız məşqçi kimi qazanılan titullar üzrə siyahıya Ağasəlim Mircavadov başçılıq edir. Onun hesabında müxtəlif klub və turnirlərdə 11 titul var. Yuri Maksimov bu "20-lik"də 7-ci legionerdir. Onadək yalnız 6 əcnəbi Azərbaycan klubları ilə titul əldə edib. Yalnız gürcüstanlı Kaxaber Sxadadze 2 dəfə bunu bacarıb. O, "İnter"lə (indiki "Keşlə") Azərbaycan çempionluğunu və "Birlik kuboku"nu əldə edib.

Ukraynalının həmyerlisi Valentin Xodukin "İnter"lə, makedoniyalı Qyoko Hacıyevski "Bakı" ilə çempionluq sevinci yaşayıb. "Bakı"da türkiyəli Cüneyt Biçər, "Xəzər Lənkəran"da rumınıyalı Mirça Rednik Azərbaycan kubokunun sahibi olub. Əcnəbilərin qazandığı daha bir titul isə Superkubokun "Xəzər Lənkəran"a getməsində pay sahibi olan Con Toşakın hesabındadır.



### 7 illik fasilədən sonra qırılan seriya

Azərbaycan kubokunda yerli baş məşqçilərin qələbə seriyası qırılıb. 7 illik fasilədən sonra ölkə kubokunu yenidən əcnəbi mütəxəssis qazanıb.

1992-ci ildən keçirilən Azərbaycan kubokunu bunadək sonuncu qazanan əcnəbi baş məşqçi Mirça Rednik olub. "Xəzər Lənkəran"ın rumınıyalı çalışdırıcısı 2011-ci ildə "Keşlə"nin sələfi "İnter"i Tofiq Bəhramov adına Respublika stadionunda məğlub edərək (əlavə vaxtda 1:1, oyunsonrası penaltilərlə 4:2) tarix yazmışdı.

Bundan sonra 6 finalda yeri mütəxəssislər qələbəni bayram etmişdi. Bu, 2012-ci ildə "Bakı" (Novruz Əzimov), 2013-cü və 2014-cü illərdə "Neftçi" (Böyükağa Hacıyev), son 3 ildə isə "Qarabağ" (Qurban Qurbanov) qalib olmuşdu.

Yuri Maksimov Azərbaycan kubokunu qazanan ilk ukraynalı baş məşqçi olub. Bu titula sahib çıxan ilk əcnəbi isə türkiyəli Cüneyt Biçərdir. O, 2010-cu ildə "Bakı" ilə "Xəzər Lənkəran"ı əlavə vaxtda 2:1 hesabıyla məğlub edib.

Rekordçular Qurban Qurbanovla Mehman Allahverdiyevdir. Q. Qurbanov ilk kubokunu "Qarabağ"da debüt mövsümündə - 2008/09-da qazanıb. M. Allahverdiyev isə "Kəpəz"in qazandığı hər 4 kubokda - 1994, 1997, 1998 və 2000-ci illərdə komandanın baş məşqçisi olub. Kubok sayında onların ən yaxın izləyicisi 3 dəfə bunu qazanan Ağasəlim Mircavadovdur ("Qarabağ", 1993, "Xəzər Lənkəran", 2007, 2008). Kazbek Tuayev ("Neftçi", 1996, 2004), və Əsgər Abdullayev ("Şəfa", 2001, "Bakı", 2005) hərəyə 2 dəfə kuboku qazanıb. Məmmədəli Məmmədov ("İnşaatçı", Bakı, 1992), Vaqif Sadıqov ("Neftçi", 1995), Əhməd Ələsgərov ("Neftçi", 1999) və Böyükağa Ağayevin (2006, "Qarabağ") aktivində 1 kubok var.

Göründüyü kimi, Azərbaycan kubokunu yerli baş məşqçiləri də nəzərə alsaq, 4 ölkənin təmsilçisi qazanıb. Azərbaycandan başqa, buna nail olanlar Türkiyə, Rumınıya və Ukraynadan olan mütəxəssislərdir.

### Azərbaycan kubokunun bütün finalçıları

| | |
|---|---|
| *1992* | *"İnşaatçı" (Bakı) - "Kür" (Mingəçevir) - 2:1 (əlavə vaxtda)* |
| *1993* | *"Qarabağ" (Ağdam) - "İnşaatçı" (Sabirabad) - 1:0 (əlavə vaxtda)* |
| *1993/94* | *"Kəpəz" (Gəncə) - "Xəzər" (Lənkəran) - 2:0* |
| *1994/95* | *"Neftçi" (Bakı) - "Kür" (Mingəçevir) - 1:0* |
| *1995/96* | *"Neftçi" (Bakı) - "Qarabağ" (Ağdam) - 3:0* |
| *1996/97* | *"Kəpəz" (Gəncə) - "Xəzri" (Bakı) - 1:0* |
| *1997/98* | *"Kəpəz" (Gəncə) - "Qarabağ" (Ağdam) - 2:0* |
| *1998/99* | *"Neftçi" (Bakı) - "Şəmkir" - 0:0, pen - 5:3* |
| *1999/2000* | *"Kəpəz" (Gəncə) - "Qarabağ" (Ağdam) - 2:1* |
| *2000/01* | *"Şəfa" (Bakı) - "Neftçi" (Bakı) - 2:1* |
| *2001/02* | *yarımçıq qalıb* |
| *2002/03* | *keçirilməyib* |
| *2003/04* | *"Neftçi" (Bakı) - "Şəmkir" - 1:0 (əlavə vaxtda)* |
| *2004/05* | *"Bakı" - "İnter" (Bakı) - 2:1 (əlavə vaxtda)* |
| *2005/06* | *"Qarabağ" (Ağdam) - "Karvan" (Yevlax) - 2:1* |
| *2006/07* | *"Xəzər-Lənkəran" - "MKT-Araz" (İmişli) - 1:0* |
| *2007/08* | *"Xəzər-Lənkəran" - "İnter" (Bakı) - 2:0 (əlavə vaxtda)* |
| *2008/09* | *"Qarabağ" (Ağdam) - "İnter" (Bakı) - 1:0* |
| *2009/10* | *"Bakı" - "Xəzər-Lənkəran" - 2:1 (əlavə vaxtda)* |
| *2010/11* | *"Xəzər-Lənkəran" - "İnter" (Bakı) - 1:1, pen - 4:2* |
| *2011/12* | *"Bakı" - "Neftçi" (Bakı) - 2:0* |
| *2012/13* | *"Neftçi" (Bakı) - "Xəzər-Lənkəran" - 0:0, pen - 5:3* |
| *2013/14* | *"Neftçi" (Bakı) - "Qəbələ" - 1:1, pen - 3:2* |
| *2014/15* | *"Qarabağ" (Ağdam) - "Neftçi" (Bakı) - 3:1* |
| *2015/16* | *"Qarabağ" (Ağdam) - "Neftçi" (Bakı) - 1:0 (əlavə vaxtda)* |
| *2016/17* | *"Qarabağ" (Ağdam) - "Qəbələ" - 2:0* |

***Oyundan sonra***

### "Futbolçulara görə məyusam"

***Roman Qriqorçuk ("Qəbələ" klubunun baş məşqçisi):***

- Bu cür oyunlarda, xüsusilə də finalda favorit olmur. Həmişə şanslar bərabərdir. Bilirdik ki, yaxşı komandaya qarşı oynayacağıq. Matç bərabər səviyyədə keçdi. Sadəcə, rəqib qol epizodundan istifadə etdi, biz isə yox. Əlbəttə, çox məyusuq. Ümid edirdik ki, Qəbələdəki finalı qazanacağıq. Futbolçulara görə məyusam, onlar çox üzülüblər. Halbuki, kuboku qazanmağı çox istəyirdilər, bu arzuyla yaşayırdılar. İndi isə belə məyus vəziyyətdədilər. Futbolçular oyuna köklənmişdilər, finala ciddi yanaşırdılar. Oyuna hazırlıq müddətində onlarla fərdi söhbətlərim oldu. Matça aid hər şeyi müzakirə etdik - taktikanı da, strategiyanı da. Təəssüf ki, istəklərimiz uğurla həyata keçmədi.

Ozobiçin zədəsi vardı. Bu səbəbdən bir az məşq buraxdı. Oynamağa başlasa da, belə nəticəyə gəldik ki, 90 dəqiqə çıxış etməyə hazır deyil. Ona görə ehtiyatda saxladıq, sonradan meydana buraxdıq və oyunu sürətləndirdi.

Azərbaycandakı son oyunumun qələbə ilə yekunlaşmasını çox istəyərdim. Çünki futbol planında çox yaxşı anlarımız olub. Burada həmişə insanların özümə qarşı hörmətini hiss etmişəm, bütün jurnalistlərdən daim peşəkar münasibət görmüşəm. Buna görə indi fürsətdən istifadə edərək sizə minnətdarlığımı bildirirəm. Onu deyə bilərəm ki, bu münasibət qarşılıqlıdır. Dəfələrlə bildirmişəm ki, burada çox şey öyrənmişəm. Azərbaycan xalqına, xüsusilə də futbol azarkeşlərinə çox minnətdaram. Futboldan danışırıq, ancaq onu da bilirəm ki, bu gün ölkə böyük bayramı qeyd edir. Müsahibəmizi bütün Azərbaycanı bu 100 illik yubiley münasibətilə təbriklərimi çatdırmaqla bitirmək istəyirəm. Təkcə azarkeşlərə yox, bütün Azərbaycan xalqına ən xoş arzularımı çatdırıram.



### "Düşünürəm ki, şans bizim tərəfimizdə idi"

***Yuri Maksimov ("Keşlə" klubunun baş məşqçisi):***

- "Qəbələ" klubunun güclü tərəflərini bilirdik. Əsas "silahlar"ı irəlidə oynayan 3 legionerdir. Onların vasitəsilə hücuma çox sürətli çıxırdılar. Biz çalışdıq ki, öz sahəmizdə onlara oynamağa imkan verməyək. Bunun üzərində çox çalışmışdıq. Onlar taktiki sxemi dəyişmişdilər, "4-4-2" oynamadılar. Amma bu, elə də sürpriz olmadı. Dabo sol cinahda həm geridə, həm də hücumçu kimi oynayırdı. Ozobiç də mərkəzdə yox idi. Onlar da bizim kimi, 3-4-3 şərti düzülüşü ilə meydana çıxmışdılar. Biz onların 3 hücumçusunu mərkəzdə zərərsizləşdirməyə çalışdıq. Düşünürəm ki, şans da bizim tərəfimizdə idi. Çünki futbolda şansın köməyi olmadan uğur qazanmaq çətindi. Biz də 0:1 hesabı ilə uduza bilərdik. Nəticədən razıyıq. Avrokuboklarda uğur qazanmaq istəyiriksə, ciddi dəyişikliklər etməli, güclənməliyik.

***Rahib Səmədov,***
***Bakı-Qəbələ-Bakı***




# DÇ-2018: yenilənən rekordlar və bir-birinə tanış rəqiblər

***Növbəti həftədən etibarən bütün dünyanın diqqəti planetin ərazicə ən böyük ölkəsinə- Rusiyaya yönələcək. 4 ildən bir keçirilən futbol üzrə dünya çempionatı məhz burada təşkil olunacaq. 2001-ci ildən etibarən dünyanın ən böyük idman tədbirlərini öz səhifələrində işıqlandıran "Olimpiya dünyası" öz oxucularının görüşünə DÇ-2018 ilə bağlı maraqlı yazılarla gəlir. Artıq bir aydan çoxdur ki, qəzetimizdə futbol üzrə dünya çempionatına həsr olunmuş, maraqlı statistikalarla zəngin olan yazıları və xəbərləri sizə təqdim edirik.***

***Hesab edirik ki, DÇ tarixində qeydə alınmış rekordlarla bağlı yazılar çoxsaylı oxucularımızın marağına səbəb olacaq.***

## 11 metrlik cərimə zərbəsi ilə ən çox qələbə qazananlar

Futbol üzrə dünya çempionatı tarixində final mərhələsində 11 metrlik cərimə zərbəsi ilə matçların müqəddəratını həll edən 2 komanda var. Bunlardan biri Almaniya, digəri isə Argentina milliləridir. Hər iki yığma komanda 4 dəfə 11 metrlik cərimə zərbəsi ilə rəqibə qalib gəliblər. Əgər DÇ-2018-də bu iki millidən biri 11 metrlik cərimə zərbələrindən sonra qalib olarsa, dünya çempionatı tarixində yeni rekordçu olacaq. Onu da qeyd edək ki, Dünya çempionatlarında 11 metrlik cərimə zərbələrini ən uğursuz yerinə yetirən yığma komandalar arasında İngiltərə və İtaliya liderlik edir.



## Uzun müddətdən sonra mundialın qalibi olan komanda



1938-ci ildə dünya çempionu tituluna yiyələnən İtaliya millisi növbəti qalibiyyətini 44 il sonra əldə edib. Belə ki, 1982-ci ildə apeninlilər ikinci dəfə dünya çempionu olublar. Əgər DÇ-2018-də Urugvay (1950) və İngiltərə (1966) millilərindən biri birinci olarsa, onda İtaliya öz yerini bu iki yığmadan birinə verəcək.

## Ardıcıl olaraq DÇ-ni 4-cü yerdə başa vuran komanda

2014-cü ildə Braziliya millisi öz azarkeşləri önündə mundialın yarımfinalında Almaniya komandasına 7:1 hesabı ilə məğlub oldu. 3-cü yer uğrunda görüşdə Hollandiya millisinə də uduzan (3:0) "sambaçılar" dünya çempionatını 4-cü yerdə tamamlayıb. Əgər Braziliya millisi bu dəfə analoji yarışı 4-cü sırada başa vursa, tarixdə ardıcıl olaraq iki DÇ-ni 4-cü sırada yekunlaşdıran yığma adını qazanacaq.

Qeyd edək ki, Uruqvay komandası müxtəlif illərdə Dünya çempionatını 3 dəfə 4-cü sırada başa vurub.

## Dünya çempionatında ən çox bir-biri ilə qarşılaşan millilər

Bu vaxta qədər Dünya çempionatı tarixində Brazilya və İsveç, Almaniya və Yuqoslaviya, Argentina və Almaniya komandaları bir-biri ilə 7 dəfə qarşılaşıblar. Əgər Rusiya-2018-də Brazilya - İsveç və Argentina - Almaniya oyunları keçirilərsə, bu komandalar 8-ci dəfə bir-birilə qarşılaşmış olacaqlar. Beləliklə, dünya çempionatında ən çox qarşılaşan komandaların rekordu qırılacaq. Brazilya qrup mərhələsini lider, İsveç isə 2-ci yerdə tamamlayarsa, 1/8 finalda qarşılaşacaqlar. Almaniya və Argentina isə qrup mərhələsininin lideri olarsa, yarımfinalda bir-birləri ilə mübarizə aparacaqlar.

## Dünya çempionatında ən yaşlı futbolçu

2014-cü ildə dünya çempionatında kolumbiyali Əli Fərid Mondraqon 43 yaşından DÇ tarixində forma geyinən ən yaşlı futbolçu rekorduna sahibdir. Lakin Rusiyada keçirilən yarışda Misir komandasının 45 yaşlı qapıçısı Əssam Əl Hadari Rusiya-2018-də oyuna çıxacağı təqdirdə bu rekordu yeniləyəcək.

# 32 yığma komandanın devizləri hazırdır

Futbol üzrə dünya və Avropa çempionatlarını yaxından izləyən oxucularımız yaxşı bilir ki, bu yarışlardan əvvəl ənənəvi olaraq final mərhələsinə vəsiqə qazana komandaların sloqanları tərtib olunur. Rusiyada keçirilən dünya çempiontında da bu ənənə davam edib. DÇ-2018-ə vəsiqə qazanan milli komandaların devizləri yenidən diqqət mərkəzinə düşüb. Həmin komandaları irəli səsləyən və onların istəklərini təcəssüm etdirən cümlələri təqdim edirik.




### A qrupu

**Rusiya**
Açıq ürəklə və sona qədər mübarizə aparaq

**Səudiyə Ərəbistanı**
Səhranın cəngavərləri

**Misir**
Fironlardan söz düşəndə hamı ayağa qalxıb, onlara qulaq asacaq

**Uruqvay**
Günəş Rusiyadan şəfəq saçacaq, bütün səma mavi rəngə boyanacaq

### B qrupu

**Portuqaliya**
Keçmişimiz şərəfdir, bu günümüz tarix

**İspaniya**
Biz birlikdə məğlubedilməzlərik

**İran**
80 milyon insanın ürəyi bir millət olaraq birlikdə döyünəcək

**Mərakeş**
Atlas şirləri Mərakeşin qüdrətidir

### C qrupu

**Fransa**
Sizin gücünüz bizim ehtirasımızdır. İrəli, üçrənglilər

**Avstraliya**
Cəsur və mübariz olun, Sokkerouzlar qızıldır

**Peru**
Biz qayıtdıq. 30 milyon perulu bizimlə buraya gəlir

**Danimarka**
Birlikdə tarix yazaq

### D qrupu

**Argentina**
Birlikdə bir arzu üçün...

**İslandiya**
Gəlin, arzumuzu həyata keçirək

**Xorvatiya**
Kiçik ölkə, böyük arzu

**Nigeriya**
Afrika qürurunun qanadları

### E qrupu

**Brazilya**
5 ulduzdan əlavə 200 milyon ürək

**İsveçrə**
Dörd dil, bir millət

**Kosta-Rika**
Bütün ölkə oynayanda mümkün olmayan heç nə yoxdur

**Serbiya**
Bir komanda, bir arzu - Serbiya

Oyunçular və azarkeşlər əl-ələ verin

### F qrupu

**Almaniya**
Tarixi birlikdə yazaq

**Meksika**
Meksikada bu komanda qələbə üçün yaranıb

**Cənubi Koreya**
Asiya şirləri, dünyanı fəth edin

### G qrupu

**Belçika**
Qırmızı şeytanlar tapşırıqdadır

**Panama**
Panama - iki dənizin gücü

**Tunis**
Rusiya, qartallar buraya gəlib.

**İngiltərə**
Qələbəni bizə gətirin

### H qrupu

**Polşa**
İrəli Polşa

**Seneqal**
Mümkün deyil. Bu sözü seneqallılar qəbul etmir

**Kolumbiya**
Bir arzu, üç rəng və 50 milyon ürək

**Yaponiya**
Döyüşün, mavi samuraylar



* Qeyd edək ki, yığma komandaların sloqanları əsasən onlar üçün ayrılmış avtobusların üzərində öz əksini tapacaq.

## *Dünya çempionatının avtomobilləri təqdim edildi*

Koreyanın KİA Motors şirkəti rəsmi sponsoru olduğu dünya çempionatı 2018 üçün avtomobillərini yarışın təşkilatçı FİFA-ya təqdim edib.

Maşınlar milli komandalar, hakimlər, rəsmi şəxslər, nümayəndələr və VİP-personaların daşınması məqsədilə istifadə olunacaq. Şirkət bunun üçün ümumilikdə 424 maşın olmaqla "Kia K9", "Sorento", "Sportage" və "Ceed" modellərini ayırıb.

"Biz sevinirik ki, FİFA-ya dünya çempionatının uğurlu keçməsi işinə kömək edirik. Ümidvarıq ki, bunun nəticəsində dünyada insanlar KİA-nı daha çox tanıyacaqlar" - deyə KİA Motors-un prezidenti Çjon Von Çjon maşınların təqdim olunması mərasimində bildirib.

Həmçinin KİA FİFA ilə birgə futbolsevərlərə "Get into the game" proqramında iştiraka şərait yaradacaq. Birinci növbədə, müxtəlif ölkələrdən olan 64 uşağa DÇ-2018-in 64 oyununun hər birində meydana yarışın rəsmi topunu çıxarmaq imkanı yaradılacaq. Həmçinin "Champ into the Arena" və "Lucky Drive to Russia" proqramı çərçivəsində bir qrup futbol azarkeşi Rusiyadakı yarışı canlı izləyə biləcəklər.

## *MMA döyüşçüsü ulduz futbolçunun cangüdəni oldu*

Portuqaliya yığmasının hücumçusu Kriştianu Ronaldo dünya çempionatı ərzində yeni cangüdənlərlə mühafizə olunacaq. Ulduz futbolçu MMA döyüşçüsü Qonsalo Salqado və keçmiş desant Nuno Marekosun xidmətlərindən yararlanacaq.

Məlumat üçün bildirək ki, Salqado 2006-2011-ci illərdə ağır çəki üzrə keçirdiyi 7 döyüşdən 5-də qələbə qazanıb. Ronaldoya qədər o paytaxt Lissabonda fəaliyyət göstərən torridaların birində mühafizə xidmətinin rəhbəri olub.

## *Açılış matçının topu yer kürəsinə qayıdır*



Xəbər verdiyimiz kimi, martın 24-də futbol üzrə dünya çempionatının açılış matçının topu kosmosa göndərilmişdi. "Soyuz MS-07" hava gəmisinin kapsulunda göndərilən top artıq yerə qaytımaq üzrədir. Kosmonavt Anton Şkaplerovun apardığı topu həmkarı Oleq Artyomov geri qaytarır. MKS-54/55 missiyasının heyəti çalışır ki, açılış matçının topu iyunun 14-nə qədər yer kürəsinə qaytarsın.

Olimpiya dünyası

Baş redaktor:
M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
H/H AZ79IBAZ38090019449333849204
M/H 0137010002944
KOD 805250
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı günü çap edilir.

E-mail:
olimpiya_dunyasi@mail.ru
Ünvan:
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-90-54; 564-74-19

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.